QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 072 (5792) **23 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



***"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir***

# Dövlətimizin sosial siyasətinin başlıca hədəfi əhalinin rifahının təminatıdır

*Prezident İlham Əliyevin növbəti sərəncam və fərmanları əhalinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb*

Səh 2



3



**Şəkidə "Uğurlu sosial siyasətin yeni hədəfləri" mövzusunda müşavirə keçirilib**

4



**"Qarayaxma kampaniyası aparanlar eyni mərkəzdən idarə olunurlar"**

4

**"Washington Times" erməni lobbisinin pozucu fəaliyyəti haqqında yazıb**



# Dövlətimizin sosial siyasətinin başlıca hədəfi əhalinin rifahının təminatıdır

*Prezident İlham Əliyevin növbəti sərəncam və fərmanları əhalinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb*



***Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdəndir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişinin təmin edilməsi prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bildiyimiz kimi? 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq, həyata keçirilir.***

Ölkəmizdə iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür və sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox artıb ki, bu da, dünya üzrə rekord göstəricidir. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin son üç ayı ərzində imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərmiş oldu. Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam, 4 Fərman sıravi vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklərin başladığını xarakterizə edir.

Dövlət başçısının minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncamı olduqca mühüm dəyişiklik deməkdir. Sənədə əsasən, bu il martın 1-dən minimum əməkhaqqı 38,5 faiz (50 manat) artırılaraq, 130 manatdan 180 manata yüksəldi. Təbii ki, tələbələr, magistrlər və doktorantlar da Cənab İlham Əliyevin məlum Sərəncamından yararlandılar. Dövlət başçısının qərarı ilə onlara verilən təqaüdlərdə də ciddi artım müşahidə olundu. Belə ki, əlaçı tələbələr martın 1-dən 210 manat təqaüd almağa başladılar.

Prezident "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam imzalayaraq, bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasının təmin edilməsi barədə göstəriş verildi və pensiyaların artırılması ilə bağlı çox ciddi qərar qəbul edildi. Beləliklə, minimum pensiya 38,5 faiz artırılaraq, 116 manatdan 160 manata çatdırıldı.

## BİR SIRA KATEQORİYALARDAN OLAN VƏTƏNDAŞLARIN SOSİAL MÜAVİNƏTLƏRİ VƏ PREZİDENT TƏQAÜDLƏRİ ARTIRILIB, YENİ TƏQAÜD NÖVLƏRİ TƏSİS OLUNUB

Prezident İlham Əliyevin yeni sərəncam və fərmanlar ilə aprelin 1-dən müavinət və təqaüdlərin ciddi şəkildə artırılması, yeni təqaüd növlərinin də təsis edilməsi təmin olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 aprel 2019-cu il tarixdə imzaladığı sərəncam və fərmanlar bir sıra kateqoriyalardan olan vətəndaşlara sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta orta hesabla 100 faiz artırılmasını, yeni təqaüd növlərinin təsis olunmasını təmin edir. Bu sənədlər dövlət başçısının uğurlu sosial islahatlar paketinin növbəti nailiyyəti olmaqla, əhalinin, xüsusilə, həssas qruplardan olan vətəndaşların rifah halının yaxşılaşdırılmasında əhəmiyyətli addımın atılması deməkdir. Belə ki, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 15 aprel 2019-cu il tarixli Fərmana əsasən, aprelin 1-dən əlillik "ümumi xəstəlik", "hərbi xidmət dövründə xəstələnmə", "əmək zədəsi və peşə xəstəliyi", "hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar", "Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar", "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar" və "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar", "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və ya "hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar" səbəbindən baş verdikdə, aylıq müavinətin məbləği I dərəcə əlilliyi olan şəxslər üçün 150 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 130 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 110 manata, uşağın anadan olmasına görə birdəfəlik müavinət isə 200 manata çatdırılır.

Aylıq müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 130 manat, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 150 manat, ailə başçısını itirməyə görə 80 manat (hər nəfər üçün), müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqları üçün 100 manat (hər uşaq üçün), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün (himayəçilərinə) müavinət 100 manat, dəfn üçün birdəfəlik müavinət 300 manat müəyyən olunub. İmzalanan digər bir Fərmanla isə beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləği 55 manata (hər uşaq üçün) çatdırılır.

## SOSİAL MÜAVİNƏT VƏ TƏQAÜDLƏRİN VERİLMƏSİNƏ YÖNƏLDİLƏN İLLİK VƏSAİT 2 DƏFƏ ARTIRILACAQ

Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli digər Fərmanında isə I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilməsi və onun aylıq məbləği 50 manat müəyyən olunması nəzərdə tutulur. Bu Fərmanda həmin təqaüdün 2019-cu il aprelin 1-dək I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə "Əmək pensiyaları haqqında" Qanunda nəzərdə tutulmuş qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə və təqaüdü almaq hüququ olan şəxslərdən yalnız birinə ödənildiyi qeyd olunur.

"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" 15 aprel 2019-cu il tarixli Fərmanda isə müharibə veteranlarına Prezidentin aylıq 80 manat məbləğində təqaüdünün təsis olunması tapşırılır. Fərmanda qeyd olunur ki, bu təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə, döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Beləliklə, imzalanan sərəncam və fərmanlar 600 minədək şəxsin, o cümlədən, 300 min əlilliyi olan şəxsin sosial müavinətlərinin, Prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artırılmasını, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdlərinin təsis olunması ilə sosial təminat sisteminin əhatə dairəsinin daha da genişlənməsini nəzərdə tutur.

Qeyd olunan məqsədlər üçün, əlavə olaraq, illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönəldilən illik vəsait 2 dəfə artırılacaq.

Bütün bu addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində, göründüyü kimi, əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Şəkidə “Uğurlu sosial siyasətin yeni hədəfləri” mövzusunda müşavirə keçirilib

***Şəkidə “Uğurlu sosial siyasətin yeni hədəfləri mövzusunda” regional müşavirə keçirilib. SİA-nın xəbərinə görə, baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədovun rəhbərliyi ilə keçirilən müşavirədə millət vəkilləri Azər Kərimli, Yaqub Mahmudov, Fəttah Heydərov, Aqiyə Naxçıvanlı, Kamilə Əliyeva, Nəsib Məhəmmədəliyev, Əli Məsimli, Cavanşir Feyziyev, Elşən Musayev, partiyanın rayon təşkilatının sədrləri, icra nümayəndəliyi və digərləri iştirak ediblər.***



Tədbir iştirakçıları öncə Şəki rayon İcra Hakimiyyətinin qarşısında Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər.

Müşavirədə ilk çıxış edən Şəki rayon icra hakimiyyətinin başçısı Elxan Usubov iclası açaraq rayonda sosial sahə ilə bağlı görülən işlər haqqında məlumat verib.






Daha sonra çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov bildirib ki, 1 il bundan öncə xalqımız növbəti dəfə İlham Əliyevə səs verərək Ona 2025-ci ilə qədər Azərbaycanın prezidentlik vəzifəsini həyata keçirməyi həvalə etdilər: “Xalqımız bu addımla yenidən Ulu Öndər Heydər Əliyev siyasətinin davam etməsinə öz razılıqlarını bildirdilər. Beləliklə, 2018-ci ildə keçirilən seçkilərdən 1 il sonrakı müddət ərzində çox əhəmiyyətli, həyatımızın bütün sahələrini əhatə edən dəyişikliklər baş verib. Bu dəyişikliklər içərisində xüsusi diqqəti cəlb edən məsələ vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması ilə əlaqədar çox əhəmiyyətli və genişmiqyaslı strategiyanın reallaşmasıdır. Prezident seçkilərindən İlham Əliyevin imzaladığı ilk Fərman da vətəndaşlarımızın müəyyən qisminin sosial rifah halının yaxşılaşdırılması ilə əlaqədar olub. Ötən 1 il ərzində həyata keçirilən çoxmiqyaslı tədbirlər çərçivəsində sosial yönümlü, sosial strategiyanın həyata keçirilməsi ilə bağlı Prezident tərəfindən çox vacib sənədlər imzalanıb. Nəticə etibarı ilə Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmağa başlanıb”.

Ə.Əhmədov qeyd edib ki, Prezidentin imzaladığı sərəncamlarla Azərbaycanda minimum əməkhaqqı 38 faiz artırılaraq 130 manatdan 180 manata qaldırılıb: “Beləliklə, Azərbaycanda təxminən 600 mindən çox insanın yaşayış səviyyəsində, aldığı əmək haqlarında ciddi artım baş verib. Eyni ilə minimum pensiyaların 116 manatdan 160 manata çatdırılması nəticəsində yenə də təxminən 600 mindən çox insanın pensiyasında əhəmiyyətli artım baş verib ki, bu da onların rifahının yaxşılaşmasına kömək göstərəcək. Eyni zamanda Azərbaycan hökumətinin müəyyənləşdirdiyi və illər boyu həyata keçirdiyi müavinətlər, sosial yardımlar, güzəştlərlə əlaqədar da imzalanan prezident sərəncamları ilə çox ciddi addımlar baş verib. Azərbaycanda bütün zümrədən olan vətəndaşlara verilən müavinət, təqaüd və güzəştlər əhəmiyyətli dərəcədə artıb. Elə bir zümrə yoxdur ki, dövlət tərəfindən müəyyənləşdirilən təqaüd, güzəşt və yardımlarda bu və ya digər dərəcədə artımlar olmasın. Beləliklə də Azərbaycan vətəndaşının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addım atılıb”.

Baş nazirin müavini məmnunluqla qeyd edib ki, bu addımların atılması, sosial strategiyanın daha qabarıq şəkildə reallaşması, bununla əlaqədar olaraq Prezident tərəfindən imzalanan çox vacib sənədlər iqtisadiyyatımızın inkişafı ilə bağlı olan, həyata keçirilən islahatların məntiqi nəticəsinə, yekunlarına söykənir. İqtisadi sahədə, eləcə də digər sahələrdə həyata keçirilən islahatlar Azərbaycan hökumətinin imkanlarının artması nəticəsində reallaşdırılır. Bunun sayəsində bu ildən etibarən sosial siyasətin daha qabarıq şəkildə həyata keçirilməsi istiqamətində addımlar atılır. Hər bir dövlətin həyata keçirdiyi funksiyalar çərçivəsində iki vəzifə fundamental məna və əhəmiyyət kəsb edir. Onlardan biri təhlükəsizliyin təmin edilməsi, ikinci insanların rifahının yaxşılaşdırılmasıdır. Əlbəttə sevindirici haldır ki, Azərbaycanda Ulu Öndərin qoyduğu ənənəyə sadiqlik, əmin-amanlıq, təhlükəsizlik təmin olunur. Bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. İndiki halda dünyanın bir çox ölkələrdə baş verən qanlı toqquşmalar, fəlakətlər müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik insanların həyatı üçün böyük sərvətdir. Bu sərvət Heydər Əliyev siyasətinin Azərbaycana verdiyi ən böyük nemətlərdən biridir. Prezident İlham Əliyev də bu xətti, strategiyanı uğurla davam etdirir”.

Ə.Əhmədov bildirib ki, sabitlik, əmin-amanlıq insanların təhlükəsiz yaşaması üçün əvəzedilməz şərtdir: “Amma bir tərəfdən sakitlik, təhlükəsizlik ölkənin inkişafının ən ümdə əsaslarından ilkin şərtlərindən biridir. Təhlükəsizlik, sabitlik olmasa hər hansı iqtisadi islahatlardan, müşahidə etdiyimiz uğurlardan, nailiyyətlərdən söz açmaq olmaz. Hesab edirəm ki, Azərbaycan vətəndaşları sabit bir ölkənin vətəndaşları olduğu üçün özlərini məmnun və xoşbəxt hesab edə bilərlər. Bütün bunların sayəsində Azərbaycan inkişaf edir. Həyatımızın bütün sferalarında böyük inkişaf gedir. Azərbaycan müasirləşir, yeniləşir, bütün bölgələrimiz sürətlə inkişaf edir, insanların yaxşı yaşaması üçün bütün şərtlər yaradılıb. Bu illər ərzində Azərbaycan köklü şəkildə dəyişib, yeniləşib. Bu inkişaf Şəkidən də yan keçməyib. Azərbaycanın hər yerində hökm sürən inkişaf burada özünü göstərməkdədir. Bütün bunlar daha çox insanların rahat yaşaması, layiq olduqları səviyyədə şərait və imkanların yaradılması məqsədilə baş verir. Bu mənada sabitlik, əmin-amanlıq baş verən dəyişikliklər üçün ilkin şərtdir”.

YAP-ın Sədr müavini vurğulayıb ki, 2003-cü ildən prezidentlik fəaliyyətində olan İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas qayəsini insanların rifahının yaxşılaşdırılması təşkil edir: “Bu istəyin həyata keçirilməsi üçün maddi bazanın yetişdirilməsi vacibdir. İqtisadiyyatı inkişaf etdirmədən, insanları işlə təmin etmədən onların həyat səviyyəsinin yüksəldilməsi üçün lazım olan resursların qazanmadan sosial rifahın yüksəldilməsi ilə bağlı arzuları reallaşdırmaq mümkün deyil. Bu xəyaldan başqa bir şey olmayacaq. Ona görə də 2003-cü ildən həyata keçirilən siyasətin qayəsi bu şərtləri formalaşdırmaq, bu şərtlər əsasında insanların rifah halını yaxşılaşdırmaq olub. Məhz bu şərtlər yarandığına görə artıq geniş miqyaslı sosial xarakterli islahatlar, layihələr həyata keçirilməyə başlanıb. Bu layihələrdən Azərbaycan vətəndaşlarının bütün təbəqələri bəhrələnir”.

İclasın davamında çıxış edən millət vəkilləri Fəttah Heydərov, Yaqub Mahmudov Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasət haqqında fikirlərini bildiriblər.

***Nailə Məhərrəmova***

# "Qarayaxma kampaniyası aparanlar eyni mərkəzdən idarə olunurlar"



"Xaricdə oturub ölkəmizə qarşı qarayaxma kampaniyası aparanlar eyni mərkəzdən idarə olunurlar. Mən həm ölkəmizdə, həm Ermənistanda, həm də Avropada olanların müsahibələrini, aşıqlamalarını izləyirəm və bxırıam. Onlar hamısı erməni maliyyəsi ilə fəaliyyət göstərir və eyni tapşırığı icra edirlər. Ötən gün onlardan biri heç bir əsas olmadan, heç bir fakta söykənmədən Azərbaycan Ordusu haqqında yalan, şər-böhtan xarakterli çıxışlar edirdi". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, bu insanlar çayxana söhbətini televiziya vasitəsilə ictimaiyyətə çatdırırlar: "Ümumiyyətlə, hər bir məsələ araşdırılmalıdır. Əgər o ordu haqqında böhtan xarakterli fikirlər səsləndirirsə, deməli o insanda ümumiyyətlə, vətənpərvərlik hissi yoxdur. Bu insanlar ermənidən çox ermənidirlər. Eləcə də Leyla Yunus dəfələrlə Ermənistana qeyri-qanuni səfərlər edib. Onun Avropa ölkələrində bir neçə böyük mülkü, biznes şəbəkəsi və s. vardır. Leyla Yunus bunların hamısını erməni pulu ilə əldə edib. Gündə bir təşkilat yaradılır və adını gah "Azərbaycan Xalq Hərəkatı", gah da "Milli Şura" qoyurlar. Onların işləri-gücləri ancaq yalan danışmaqdan ibarətdir. Bilirsiniz ki, Fransada Paris Notr-Dam Kilsəsi yanıb. Düşündüm ki, onlar indi çıxıb deyəcəklər ki, bunu da Azərbaycan iqtidarı edib və yaxud da niyə Azərbaycan iqtidarı gəlib yanğını söndürməyib. Dünyada harasında nə hadisə baş verirsə, həmin hadisələri Azərbaycan iqtidarının üzərinə atırlar. Xalqımız isə bütün bunları öz gözü ilə görür, başa düşür və onlara öz yerini göstərir".

*Ceyhun Rasimoğlu*

# Kiyevdə GUAM-ın Milli Əlaqələndiricilər Şurasının növbəti iclası keçiriləcək



Aprelin 23-də Ukraynanın paytaxtı Kiyevdə GUAM-ın Milli Əlaqələndiricilər Şurasının növbəti iclası keçiriləcək. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edəcək. İclasda GUAM-ın əməkdaşlıq və tərəfdaşlıq etdiyi ölkələrlə, həmçinin beynəlxalq təşkilatlarla münasibətlərinin inkişafının daha da səmərəliliyi, GUAM ölkələrinin parlamentləri arasında əməkdaşlıq məsələləri də müzakirə ediləcək.

# Xoşbəxt Yusifzadə: Azərbaycan indiyədək AÇG-dən 279 milyon ton mənfəət nefti əldə edib




Azərbaycan bu vaxtadək "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından 279 milyon ton mənfəət nefti əldə edib. Bu barədə aprelin 22-də Bakıda işə başlayan SOCAR-ın IV beynəlxalq "Xəzər və Mərkəzi Asiya: Neft emalı, Neft-kimya, Ticarət, Logistika" Forumunda şirkətin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib. "İndiyədək "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları mənfəət neftindən gəlir əldə edirlər. İşlənmənin əvvəlindən bu vaxtadək dünya bazarında Azərbaycanın payına düşən 279 milyon ton mənfəət nefti satılıb", - deyə SOCAR-ın rəsmisi bildirib.

# Ərdoğan müxalifət liderinə hücumu pisləyib



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, müxalif Cumhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğluna edilən hücumu pisləyib. Bu barədə SİA "Haberler"ə istinadən xəbər verir. "Təəssüf ki, əsgərimizin dəfn mərasimində Kılıçdaroğluna hücum edilib, etiraz skiyası şüddətə çevrilib. Xoşagəlməz hadisə yaşanıb. Şiddətə əsla bəraət qazandırmaq olmaz. Hadisə hərtərəfli araşdırılacaq", deyə Ərdoğan "Twitter" səhifəsində yazıb.

Qeyd edək ki, Kılıçdaroğluna hücum Ankaranın Çubuk rayonunda Hakkaridə PKK terrorçuları tərəfindən şəhid edilən hərbçi Yener Kırıkçının dəfni mərasimində baş verib. Mühafizəçiləri Kılıçdaroğlunu qorumağa çalışsa da, onun hücum edən onlarla insan onun baş nayihəsinə yumruqlar vurub. Kılıçdaroğlu kütlənin arasından çıxarılaraq, yaxınlıqdakı bir evə aparılıb. Hadisə ilə bağlı Ankara Baş Prokurorluğu tərəfindən cinayət işi açılıb. Hücumla bağlı açılan cinayət işi çərçivəsində 9 nəfər saxlanılıb.

*Ceyhun Rasimoğlu*

# "Washington Times" erməni lobbisinin pozucu fəaliyyəti haqqında yazıb

***"Washington Times" qəzetində Amerika Xarici Siyasət Şurasının baş elmi işçisi, doktor Stiven Blankın Amerika Erməni Milli Komitəsinin (ANCA) Ermənistanla Azərbaycan arasında danışıqlar prosesinə xələl gətirmək cəhdlərindən və ümumilikdə, Ermənistanın siyasi müstəqilliyinin olmamasından bəhs edən məqaləsi dərc olunub.***




How to resume a war

By Stephen Blank - - Sunday, April 21, 2019

ANALYSIS/OPINION:

The war in Nagorno-Karabakh does not only occur in the South Caucasus. It also plays out in the United States with members of the Armenian diaspora and its organizations, such as the Armenian National Committee of America (ANCA), playing proxy for any number of issues. Though, to Nagorno-Karabakh, their posture has no basis in reality, for the territory occupied by Armenia is overwhelming recognized as belonging to Azerbaijan by a majority of governments of the world.

In international efforts to broker a peace, the Organization for Security and Co-operation in Europe (OSCE) established a group of three powers, France, Russia and the United States, known as the Minsk

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Dağlıq Qarabağ regionundakı müharibənin təkcə Cənubi Qafqazın hüdudları daxilində deyil, habelə erməni diasporu və onun təşkilatları, o cümlədən Amerika Erməni Milli Komitəsi tərəfindən ABŞ-da aparıldığı qeyd edilir. Müəllif yazır ki, Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması üçün beynəlxalq səylər çərçivəsində ATƏT Fransa, Rusiya və ABŞ-ın həmsədrliyi ilə Minsk qrupunu yaradıb. Minsk qrupu hər iki tərəfin qəbul etdiyi prinsiplər əsasında münaqişənin həllinə nail olmaq məqsədilə 2017-2009-cu illərdə Madrid prinsiplərini formalaşdırıb. Razılaşdırılmış bu prinsiplərdə erməni qoşunlarının dərhal çıxarılması və keçmiş DQMV-nin hüdudlarından kənarda yerləşən Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının qaytarılması tələbləri, Dağlıq Qarabağın təhlükəsizliyi və özünüidarəçiliyinə təminat verən müvəqqəti statusu, Ermənistandan Dağlıq Qarabağa dəhliz, gələcəkdə öz müqəddəratını təyin etmək vasitəsilə Dağlıq Qarabağın hüquqi statusunun müəyyən edilməsi, bütün məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qaytarılması və sülhməramlı əməliyyatlar da daxil olmaqla beynəlxalq təhlükəsizlik təminatı məsələləri yer alıb.

Amerika Erməni Milli Komitəsi 2016-cı ildən başlayaraq və böyük ehtimalla Yerevanla koordinasiya şəraitində Madrid prinsiplərini "məntiqsiz" və "qeyri-demokratik" adlandırır və tənqid edir. Lakin erməni lobbi təşkilatının narazılığının əsl səbəbi ondan ibarətdir ki, Madrid prinsiplərində Dağlıq Qarabağ müstəqil ərazi kimi tanınmır. Müəllif vurğulayır ki, Madrid prinsipləri haqlı olaraq Dağlıq Qarabağın müstəqilliyini tanıya bilməz, çünki bütün hallarda bu ərazi müstəqil ola bilməz.

Mahiyyətcə, Amerika Erməni Milli Komitəsi istəyir ki, Dağlıq Qarabağ Madrid prinsipləri çərçivəsində müstəqil ərazi kimi tanınsın və ərazilərin silahlı yolla işğalı faktı legitim olsun. Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və regiondakı inkişafdan təcrid olunub. S.Blank qeyd edir ki, Ermənistan vassal dövlətdir və ABŞ-ın nə dostu, nə də müttəfiqidir. O, Amerika dəyərlərini də qəbul etmir.

Ermənistandakı böhranlar nəticəsində 2018-ci il inqilabı baş verdi. O, irimiqyaslı demokratik və iqtisadi islahatlar vəd etdi. Bir ildən sonra həmin vədlər yerinə yetirilməmiş qalır, deyə müəllif vurğulayır. Baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi Ermənistanın yeni hökuməti ölkəsində demokratik və iqtisadi islahatların əsas şərti olan regionda sülhün bərqərar olması istiqamətində effektiv danışıqlar strategiyası hazırlaya bilmədi.

Ermənistan Dağlıq Qarabağın oyuncaq rejiminin "müstəqil dövlət" və ya siyasi qurum kimi danışıqlarda iştirak etməsi ideyasında təkid edir. Amerika Erməni Milli Komitəsinin mövqeyinə uyğun olan bu tələb gələcəkdə heç bir danışıqların olmayacağı təminatını verir, çünki o, ən başdan sülh prosesinin nəticələrinə xələl gətirir. ANCA və Ermənistanın tələbləri yeganə platforma olan və Bakı ilə Yerevan arasında Minsk Qrupunun dəstəyi ilə aparılan danışıqların effektiv strukturunu təşkil edən Madrid prinsiplərinə ziddir.

ANCA tərəfindən qoyulan bu tələblərdə Ermənistan hökumətinin iştirakı aydın deyil, lakin danışıqlara münasibətdə həmin erməni təşkilatının və Paşinyan hökumətinin bəyanatlarının oxşarlığı tamamilə açıq-aşkar görünür. S.Blank qeyd edir ki, sülh prosesində nə Amerika Erməni Milli Komitəsinin bəyannaməsi, nə də Paşinyanın dolaşıq və ziddiyyətli mövqeyi Ermənistanın maraqlarına uyğun deyil. Bundan başqa, Ermənistanın müdafiə naziri David Tonoyanın bu yaxınlarda "müharibə və yeni ərazilər işğal etmək" çağırışı kövrək sülh prosesini daha da sarsıdır. Bu cür siyasət məğlubiyyətlə, Ermənistanda iqtisadi fəlakətlə nəticələnəcək və əlbəttə ki, bu ölkədə demokratiya, tərəqqi və depopulyasiyanın dayanmasına kömək etməyəcək.

# Türkiyənin Sürixdəki Baş konsulluğuna hücum olub

İsveçrənin Sürix şəhərində Türkiyənin Baş konsulluğuna naməlum şəxslər tərəfindən "Molotov kokteylləri" atılıb. Anadolu agentliyi xəbər verir ki, bu barədə baş konsul Asiye Nurcan İpəkçi məlumat verib. Onun sözlərinə görə, Baş konsulluğun binası bundan əvvəl də bu cür hücumlara məruz qalıb. İnsidentin məsuliyyətini heç bir qruplaşma öz üzərinə götürməyib.

Baş konsul bildirib ki, İsveçrə polisi insidentlə bağlı iki nəfəri saxlayıb, lakin onların şəxsiyyəti haqqında heç bir məlumat verilməyib. İpəkçi əlavə edib ki, hadisənin detalları barədə yaxın günlərdə məlumat veriləcək. O, Baş konsulluğun binasına zərər dəymədiyini, atılan "Molotov kokteyllərindən" birinin alışmadığını, digərinin isə qapıya dəyərək söndüyünü söyləyib.

# "Israel Hayom" qəzeti: "Azərbaycan müqəddəs Odlar Yurdudur"

*İsraildə çıxan nüfuzlu "Israel Hayom" qəzetində "Azərbaycan müqəddəs Odlar Yurdudur" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC həmin məqaləni təqdim edir.*

***Gözəl Bakı şəhərinin küçələrinə ekskursiya sizi Qafqazın guya Qərbin şərq hissəsi olması barədə fikirlərdən yayınmağa məcbur edəcək. Gələn həftə Azərbaycan paytaxtında Formula 1 yürüşləri keçiriləcək. Şəhər bu mühüm beynəlxalq idman tədbirinə hazırlaşır. Bakıda olduğumuz bir neçə saat müddətində burada müasir memarlıq nümunələri olan gözəl binaları, böyük sarayları, işıqlandırılmış geniş prospektləri gördük, bir də bunu yəqin etdik ki, Bakıdakı kafe və barlarda qiymətlər Azərbaycana səfər edən hər bir israilli turist üçün münasibdir.***

Biz, israilli jurnalistlər buraya Azərbaycanın son 30 ildə üzləşdiyi ərazi münaqişəsinin nəticələrini öz gözlərimizlə görmək, vəziyyətlə yaxından tanış olmaq və onu anlamaq üçün gəlmişdik. Adının mənası "Odlar Diyarı" olan, işğaldan əziyyət çəkən bu ölkənin həqiqətən çox mürəkkəb vəziyyətdə olmasını yəqin etdik.





## Bakı: harmoniyadan münaqişənin mərkəzinə doğru

Biz möhtəşəm Heydər məscidinə gəldik. Məscidin 4 minarəsinin hündürlüyü 95 metrdir. Bu memarlıq möcüzəsinin üstünə günəş işığı düşəndə Kainatda həyatın fövqündə dayanan dinin qüvvəsini duymamaq çətindir. Məscid ölkənin ümummilli lideri, Azərbaycanın əfsanəvi Prezidenti Heydər Əliyevin şərəfinə belə adlanıb. Üç mərtəbədən ibarət olan məsciddə eyni zamanda 3500 nəfərin, o cümlədən qadınların da ibadət etmələri üçün şərait yaradılıb. Məscidə daxil olan kimi dərhal diqqəti cəlb edən böyük xalçanın sahəsi 900 kvadratmetrdir. Lakin bizi ən çox heyrətləndirən bu xalça deyil, dünyanın heç bir yerində tayı-bərabəri olmayan bu gözəl ölkəyə xas olan nadir dini harmoniya oldu.

Məscidin girəcəyində bizi iki imam - Hafiz Abbasov (şiə) və Axund Rauf (sünni), habelə digər dini konfessiyaların yüksəkrütbəli nümayəndələri, o cümlədən dağ yəhudilərinin rəhbəri və Alban-katolik kilsəsinin başçısı qarşıladı. Azərbaycanlılar haqlı olaraq çox fəxr edirlər ki, onların ölkəsi islam aləmində dinin dövlətdən tamamilə ayrıldığı ilk dünyəvi parlament dövlətidir.

Bütün dinlərin nümayəndələri arasında bu cür harmoniya mövcuddur (ölkədə rəsmi qeydiyyata alınmış 955 dini qurum fəaliyyət göstərir). Bu, həm qəribə, həm də tamamilə məntiqəuyğundur. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbəri Rəvan Həsənov deyir: "Burada harmonik dini və milli tolerantlığın səbəbi ondan ibarətdir ki, Azərbaycan həmişə nadir multikulturalizm məkanı olub. Müxtəlif mədəniyyətlərin və dinlərin qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycanda bir sıra millətlərin və dinlərin nümayəndələri yaşayır, multikulturalizm siyasəti isə rəsmi dövlət siyasəti səviyyəsinə çatdırılıb. Azərbaycan Prezidenti İlham Əliyev bütün dinlərin nümayəndələrinə eyni münasibət bəsləyir. Onun yürütdüyü müdrik siyasət xalqlar və konfessiyalar arasında birliyə, sülhə və əmin-amanlığa şərait yaradır".

Biz Bakını, onun işıqlı gecələrini arxada qoyub, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin sərhədinə - "Odlar Yurdu"nun ürəyində qanlı yaraya çevrilmiş, onu fiziki baxımdan iki hissəyə bölən əraziyə üz tutduq.

Yeknəsəq mənzərə, ucsuz-bucaqsız qara torpaq, bir neçə kənd, yol boyunca stansiyalar, yolların kənarında otlayan ev heyvanları və hər şeydən əvvəl uzaqda görünən, sanki qorxu saçan dağlar...

1988-ci ildə hələ Sovet İttifaqı dağılana qədər yaranmış hərc-mərclikdə Cənubi Qafqaz ərazisində erməni və azərbaycanlı əhali arasında münaqişə yarandı. Danılmaz tarixi faktdır ki, 250.000 azərbaycanlı Ermənistandan qovuldu. 1992-ci ilin fevralında erməni silahlı dəstələri Azərbaycanın Xocalı şəhərində qanlı qırğın törətdilər və bir gecədə bu şəhərin 613 dinc sakinini məhv etdilər. Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan 750.000 azərbaycanlı öz doğma yurdundan qovuldu.

## Tərtər rayonu: Sərhəddə qüssəli əhval-ruhiyyə

Azərbaycanın işğal edilmiş əraziləri ilə sərhədə dörd kilometr qalmış bizi Tərtər rayonunun başçısı Müstəqim Məmmədov qarşıladı.

M.Məmmədov bildirdi ki, hərbi əməliyyatlar dövründə hər tərəfdən atılan raketlər Tərtərə düşürdü. Bu sözləri eşidəndə biz özümüzü İsraildə olduğu kimi hiss etdik.

Rayon rəhbəri bizi ermənilərin İrandan və Türkiyədən Azərbaycan ərazisinə köçürülməsinin 150 illiyi münasibətilə özlərinin ucaltdığı "Marağa" abidəsinin yanına apardı. Rus-İran müharibəsində qalib gəlmiş Rusiya həmin müharibədən sonra erməniləri kütləvi şəkildə Azərbaycan ərazisinə köçürmüşdü. Ermənilərin çox hissəsi Azərbaycanın bu qədim bölgəsinin dağlıq hissəsində məskunlaşdırıldı.

Bu hadisələr bir sıra təkzibolunmaz faktlarla dönə-dönə təsdiqlənir. Belə faktlardan biri 1978-ci ildə Qarabağın Ağdərə rayonunun Marağa kəndində ermənilərin İrandan bu kəndə köçürülməsinin 150 illiyi şərəfinə qoyulmuş abidədir. Ermənilər buradan gedəndə bu tarixi abidəni dağıdıblar.

Tarixi ədalət hissi azərbaycanlılar üçün güc mənbəyidir. Onlar Ermənistanla münaqişə barədə ürəkağrısı ilə danışırlar. Bizim səfərimiz zamanı onlar öz ölkəsinin tarixi, o cümlədən Makedoniyalı İsgəndərin bu regiona yürüşü barədə bizə məlumat verdilər. Onların söhbətlərindən öyrəndik ki, Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ ərazisində Tərtər çayı üzərində tikilmiş Sərsəng su anbarı 560 min kubmetrə qədər su tutur. Bu, regionda ən böyük su anbarıdır. Sovet dövründə bu resurslar kənd təsərrüfatı təyinatlı 130 min hektara yaxın torpağın suvarılması üçün ayrılırdı. 1992-1994-cü illər müharibəsi dövründə su anbarına sahib olmaq uğrunda qanlı döyüşlər nəticəsində Ermənistan bu ərazini işğal etdi. Hazırda Ermənistan bu su anbarına nəzarət edir və azərbaycanlı fermerlərin, onların kənd təsərrüfatı təyinatlı torpaqlarının su təchizatını məhdudlaşdırır. İşğal nəticəsində burada kənd təsərrüfatı kəskin şəkildə azalıb. Azərbaycan hökuməti böhranın qarşısını almaq üçün bu regionda kənd təsərrüfatının iqtisadi cəhətdən stimullaşdırır, bu sahənin inkişafı üçün zəruri subsidiyalar ayırır. Azərbaycanlı fermerlər Sərsəng su anbarından alınmalı suyun əvəzinə öz torpaqlarını artezian suyu ilə suvarırlar. Bu isə heç də asan başa gəlmir.

Münaqişənin Azərbaycana vurduğu iqtisadi zərbə göz qabağındadır. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla söhbətdən anladım ki, ölkənin neft-qaz sahəsindən əldə etdiyi mənfəət sayəsində ucuz kənd təsərrüfatı məhsulları istehsalı üçün böyük məbləğdə sərmayələr qoyulur. Nazir, ilk növbədə, su ehtiyatlarının idarə edilməsi sahəsində İsrailin texnoloji imkanlarına heyran olduğunu bildirdi.

Tərtər rayonunun başçısından soruşdum ki, gənclər bu aqrar periferiyanı tərk edib böyük şəhərlərə köçürlərmi? Müstəqim Məmmədov dedi: "Burada sizin Bakıda gördüklərinizin hamısı, hətta ondan da artığı var".

Həsənqaya kəndinə gedirik. 2016-cı ildə dördgünlük aprel müharibəsi ərəfəsində erməni silahlı dəstələri tərəfindən artilleriya atəşləri nəticəsində bu kəndin sakini, 16 yaşlı Turanə Həsənova həlak olub. Hələ bütün həyatı irəlidə olan gənc qız erməni işğalçılarının törətdiyi vəhşiliyin qurbanı olub. Turanənin valideynləri ilə görüşdük. Onlar bu barədə ürəkağrısı ilə danışdıqca, gözlərində kədər duyulur. Turanənin qardaşını göstərdilər. 32 yaşlı Azad Həsənov qoşunların təmas xəttində piyadalar əleyhinə minaya düşüb, onun ayağını amputasiya etməli olublar. Ətürpədici xarabalıqları görəndə öz doğma torpaqlarından qovulmuş insanların keçirdiyi hissləri başa düşürük.

## Lələtəpə: iki dağ arasında

"2016-cı il aprelin əvvəlində ermənilər, həmişə olduğu kimi, gecə vaxtı cəbhə xəttində növbəti provokasiya törətdilər, lakin bu dəfə biz onlara daha artıq qüvvə ilə və sərt cavab verməyi qərara aldıq", - bu sözləri mayor Tahir dedi. Bizim görüşdüyümüz əsgərlərin çoxundan fərqli olaraq, inamla gülümsəyən mayor sözünə davam etdi: "Bizim azad etdiyimiz Lələtəpə yüksəkliyi Horadiz yaşayış məntəqəsini, bu şəhərin ətrafındakı ərazini, daha sonra Füzuli istiqamətini müşahidə etmək, atəş nəzarəti altında saxlamaq imkanını təmin edir, mühüm dəmiryol qovşağı olan Horadizin düşmən tərəfindən atəşə tutulması təhlükəsini aradan qaldırır, düşməni öz qüvvələrini gizli şəkildə cəmləşdirmək və bu istiqamətdə irəliləmək imkanından məhrum edir".

Ardı Səh. 6

# "Israel Hayom" qəzeti: "Azərbaycan müqəddəs Odlar Yurdudur"

Əvvəli Səh. 5

*İsraildə çıxan nüfuzlu "Israel Hayom" qəzetində "Azərbaycan müqəddəs Odlar Yurdudur" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC həmin məqaləni təqdim edir.*

Lələtəpə əməliyyatının azərbaycanlılar üçün əhəmiyyəti bütün israillilər üçün qürur mənbəyi olan Hermon dağının İsrail tərəfindən tutulması uğrunda döyüşlə müqayisə edilə bilər.

Lələtəpədə əsgərlərlə bərabər əyləşib təzə dəmlənmiş tünd Azərbaycan çayını dadlı mürəbbə ilə içirik. Bu, elə bir mərasimdir ki, Azərbaycanda heç bir ev sahibi sizi onsuz buraxmaz. Əyləşib bu vadiyə baxdıqca başa düşürəm ki, Lələtəpə yüksəkliyi geniş bir ərazini nəzarətdə saxlamağa imkan verir. Labirintə oxşayan relyef, təbii maneələr və sərt süni döngələr hətta təzəcə yapon cipi ilə də bu dar yolla dağa qalxmağı çətinləşdirir. 1993-cü ildə ermənilər bu yüksəkliyi ələ keçirmiş, orada az qala alınmaz bir mövqe yaratmışdılar.

Amma azərbaycanlı əsgər və zabitlər bu möhkəmlədilmiş kompleksi 20 dəqiqə ərzində azad etdilər və buna görə haqlı olaraq qürur hissi keçirirlər. Ətrafdakı ərazinin topoqrafiyası belə düşünməyə əsas verir ki, həmin əsgər və zabitlər öz ölkələrinin superqəhrəmanları olublar. İsrail Müdafiə Ordusunun nümayəndəsi kimi mən də Azərbaycan əsgərlərinin rəşadətinə heyran oldum. O vuruşmanın necə baş verdiyini, azərbaycanlı superqəhrəman əsgərlərin ermənilərin möhkəmlədilmiş forpostunu ələ keçirməyə necə nail olduqlarını anlamağa çalışıram. Xeyli sonra öyrəndim ki, xarici KİV-lərin yazdıqlarına görə, azərbaycanlı cəsur əsgərlərin bu döyüşdə göstərdiyi qəhrəmanlığa İsrail hərbi texnologiyası kömək edib, amma heç kəs bu barədə danışmağı xoşlamır.

### Aşağı Əbdürrəhmanlı

Bu kənddə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Umud Mirzəyevlə görüşdük. O, bizi özünün doğulduğu, sonradan ermənilər tərəfindən dağıdılmış kəndə aparmağı təklif etdi. Çöhrəsindən nur yağan bu yaşlı insan danışdıqca kövrəlirdi: "Burada mənim məktəbim olub, burada mənim evim olub, həyat yoldaşımın valideynlərinin evi burada olub, uşaq vaxtı burada futbol oynayırdıq". Yamyaşıl təpəliyə çatanda isə sözünə davam etdi: "Burada atamın vəsiyyətini yerinə yetirmişəm. O, öləndə öz kəndimizdə, öz torpağımızda dəfn olunmasını vəsiyyət etdi. Mənə dedi: "Oğlum, Azərbaycan torpaqlarının azad edilməsi prosesi başlanıb və inanıram ki, yaxın gələcəkdə torpaqlarımızın hamısı azad ediləcək, məni öz kəndimizdə dəfn et".

Viran edilmiş kəndi gəzirik, dağıdılmış evləri, məktəbləri, uçurulmuş, eybəcər hala salınmış məzar daşlarını gördük. Bu, dəhşətdir: Erməni snayperlər hətta ölülərə də atəş açırlar. Bizi müşayiət edən əsgərlər Umuda təlimat keçirlər, əyilməsini məsləhət görürlər. Lakin emosional Umud əyilmir və məzarın qarşısında dayanaraq, öz torpağına, ulu babasının, babasının və atasının torpağına, öz ölkəsinə və Azərbaycan xalqına sadiq qalacağını bildirir.

### Cocuq Mərcanlı

"Mən qəhrəman deyiləm, mən burada ona görə qalmışam ki, bu, mənim torpağımdır. 1994-cü ildən 2016-cı ilə qədər erməni silahlı dəstələri demək olar ki, hər gün bizim kəndi atəşə tuturdu. Sakinlər başa düşürdülər ki, bu, döyüş patronlarından istifadə etməklə aparılan psixoloji müharibədir. Lələtəpə postundakı ermənilər bu məşhur Cocuq Mərcanlı kəndini öz əsgərləri üçün canlı poliqona çevirmişdilər", - Oqtay adlı həmsöhbətim təvazökar olsa da, burada əsl qəhrəmandır.

Yaranmış mürəkkəb şəraitdə kəndin 1000 nəfərdən çox sakini müvəqqəti olaraq evlərini tərk edib daha təhlükəsiz yerlərə köçdülər. Təxliyə olunmaqdan imtina etmiş sonuncu sakin bizim qəhrəman Oqtay olub. O, 22 il ərzində həyatı üçün daimi təhlükəyə baxmayaraq, öz torpağında qalıb işləyib, uşaqlarını tərbiyə edib, fermer təsərrüfatı yaradıb. Onun uşaqları uzaq bir kənddəki məktəbə gediblər. Mən maraqlandım: Oqtayın uşaqlarının dostları Tanrının unutduğu bu kimsəsiz kəndə, bu uşaqlarla oynamağa gəlirdilərmi? Oqtay istehza ilə gülümsədi: "Uşaq - uşaqdır, əlbəttə gəlirdilər". Lələtəpə yaxınlığındakı döyüşdə erməni işğalçı qüvvələri tam məğlubiyyətə uğrayandan sonra Azərbaycan hökuməti, Azərbaycan dövləti bu kəndi bərpa edib. Nəticədə gözəl, mən deyərdim ki, fantastik bir kənd əmələ gəlib.

Bu kənd keçmişi illüstrasiya edən çox yaxşı bir nümunədir. Yerli məktəbin divarlarını döyüş əməliyyatları zamanı bu kəndin azad edilməsi uğrunda canlarından keçmiş milli qəhrəmanların fotoşəkilləri bəzəyir. Mən burada başa düşdüm ki, bizim - israilli jurnalistlərin bu kəndi görməyimiz Azərbaycan xalqından ötrü nə üçün bu qədər vacib imiş. Ona görə ki, bu gün bu insanların tarixini sovet dövrünün külündən baş qaldırmış və öz gələcəyini bərpa edən simurq quşu kimi canlı hekayətdən əhəmiyyətli heç nə yoxdur.

Bütün böyük Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin başına gələnləri İsrail-Fələstin münaqişəsi ilə müqayisə etsək, dünyamızın riyakarlığını hiss etməmək çətindir. Fələstinlilər öz ulu nənələrinin və ulu babalarının evlərinin paslı açarlarını əldən buraxmır, dünya mətbuatı bu barədə gen-bol yazır, azərbaycanlılar isə çox şey istəmir - təkcə dünyadan diqqət umurlar. Onlar istəyirlər ki, Azərbaycan ərazilərinin işğal edilməsi, Dağlıq Qarabağdan və Azərbaycanın bu bölgəyə bitişik 7 rayonundan olan bir milyon qaçqının və məcburi köçkünün problemləri barədə dünyada bilsinlər.

Daha vacibi, azərbaycanlılar istəyirlər ki, dünyada həm Azərbaycan xalqının üzləşdiyi fəlakətə, həm də işğaldan azad olunmuş ərazilərin bərpasının dövlət tərəfindən təmin edilməsinə, xüsusən xalqlar arasında nifrət hissini kəskinləşdirmədən millətlərarası münaqişənin həll etmək cəhdinə dünyada diqqət yetirsinlər.

Azərbaycanlı dostlarımız qürurla danışırlar ki, ermənilər tərəfindən aparılmış etnik təmizləməyə, Ermənistandakı və Dağlıq Qarabağdakı bütün məscidlərin dağıdılmasına baxmayaraq, azərbaycanlılar bu ölkədə yaşayan ermənilləri nəinki qovmayıblar, hətta İçərişəhərin yaxınlığında, Bakının lap mərkəzində yerləşən erməni kilsəsini bərpa və təmir ediblər. Biz şəxsən bunun şahidi olduq.

Cocuq Mərcanlı məktəbinin direktoru Zamin Həziyev dedi: "Mənim torpağımı işğal etmiş erməni əsgərinə nifrət edirəm, lakin mənim qəlbimdə bütövlükdə erməni xalqına qarşı nifrət hissi yoxdur".

Görəsən bütün bunların axırı nə olacaq? Biz səfərdə olduğumuz müddətdə Moskvada Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü olub. Belə məlum olur ki, azərbaycanlılar münaqişənin davam etməsini istəmirlər.

İsrail-Azərbaycan münasibətləri üzrə ekspert Arye Qut Azərbaycanın mövqeyini belə izah edir ki, diplomatlar söz oyunu oynayırlar. O deyib: "Azərbaycan ərazisinin 20 faizdən çoxunun erməni işğalı altında olması danılmaz faktdır. Bu, qeyri-qanuni işğaldır. BMT Təhlükəsizlik Şurası həmin ərazilərin Ermənistan tərəfindən işğal olunmasını və nəzarətdə saxlanmasını pisləyən dörd qətnamə qəbul edib.

Beynəlxalq təşkilatlar Ermənistan Respublikasını öz qoşunlarını Dağlıq Qarabağdan və Azərbaycanın bu bölgəyə bitişik 7 rayonundan çıxarmağa çağırırlar. Buna baxmayaraq, erməni qüvvələri Azərbaycan ərazilərinin işğalını, atəş açmağı və atəşkəs rejimini pozmağı davam etdirirlər.

Lakin Bakı bu məsələni sülh yolu ilə həll etməyə çalışır. Hamı çox gözəl başa düşür ki, dilənçi vəziyyətində olan yoxsul Ermənistan üçüncü ölkənin dəstəyi olmadan Azərbaycan ərazilərinin 20 faizini işğal edə bilməzdi. Azərbaycanın səbri tükənib. Rəsmi Bakı dəfələrlə bəyan edib və Ermənistana xəbərdarlıq edib ki, Azərbaycan mövcud status-kvo ilə heç vaxt razılaşmayacaq. Ermənistanın hərbi və siyasi rəhbərliyinin sərsəm bəyanatları isə göstərir ki, onlar narahatdırlar, qorxu və vahimə içindədirlər".

Sərhəd zonasında yerləşən Tərtər rayonundan olan gənc məktəblinin dedikləri də israilli ekspertin bu sözlərini təsdiq edir. Mən həmin məktəbli ilə görüşərkən o, kamal attestatı almaq üçün imtahan verməli idi. Bu münaqişənin nə ilə başa çatacağı barədə onun fikrini soruşanda həmin şagird belə cavab verdi: "Biz başqasının torpaqlarına göz dikməmişik. Ermənistanın işğal etdiyi torpaqlar bizim torpaqlardır və biz bu torpaqlardan heç vaxt imtina etməyəcəyik. Lazım gəlsə, biz vuruşacağıq və sonda ermənilər təslim olacaq və ya çoxlu qan töküləcək".

### Bakı ilə vidalaşma: demokratiya yolunda

Azərbaycanlılar regionda yaranmış geosiyasi mənzərəni çox yaxşı dərk edir və başa düşürlər. Biz səfərdə olduğumuz müddətdə İsrailin Azərbaycanı dəstəkləməsinə görə səmimi minnətdarlıq sözlərini eşitdik. Bunu Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüş zamanı da eşitdik. O dedi: "Azərbaycan İsraili özünə dost ölkə və strateji tərəfdaş hesab edir. Bu günlərdə İsraildə növbədənkənar parlament seçkiləri keçirildi. Fəaliyyətdə olan baş nazir Binyamin Netanyahu beşinci dəfə seçkilərdə qalib gəldi və hökumətə başçılıq etdi. Biz İsrail xalqının seçiminə böyük hörmətlə yanaşırıq. Netanyahu 1997-ci ildə İsrailin Azərbaycana səfər etmiş ilk yüksəkvəzifəli məmuru olub və Heydər Əliyev ilə görüşüb.

İsrailin baş nazirinin bu tarixi səfərindən sonra ölkələrimiz arasında xüsusi strateji münasibətlər yaranmağa başlayıb. 2016-cı ilin dekabr ayında Binyamin Netanyahu Azərbaycana ilk rəsmi səfər edib və bununla Bakının və Təl-Əvivin daha da yaxınlaşması kursunu nümayiş etdirib. Biz İsrail hökumətinin başçısına böyük hörmət və ehtiramla yanaşırıq. Binyamin Netanyahunun ölkəmizə və bizim Prezidentə necə səmimi insani hörmət bəslədiyini bilirik.

Bu gün Azərbaycan ilə İsrail arasında münasibətlər bütün istiqamətlərdə uğurla inkişaf edir. Onu da qeyd etmək istəyirəm ki, hazırda İsraildə istifadə olunan neftin 65 faizi Azərbaycandan gəlir. Azərbaycan isə İsraildən yüksək texnologiya məhsullarının ən vacib alıcısıdır.

Biz İsrail ilə Azərbaycanın bütün sahələrdə münasibətlərinin möhkəmlənməsi və dərinləşməsi istiqamətində işimizi bundan sonra da davam etdirəcəyik".

Azərbaycanın paytaxtı Bakıda sonuncu görüşümüz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə oldu. Cənab Hacıyev görüşdə bizə XXI əvvəlində Azərbaycanın nadir statusu və ölkələrimiz arasında münasibətlərin strateji əhəmiyyəti barədə danışdı.

O dedi: "1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra İsrail ilə Azərbaycan arasında xüsusi münasibətlər yarandı. İsrail Azərbaycanın müstəqilliyini tanımış ilk ölkələrdən biri oldu. Bizim iqtisadi, siyasi, hərbi, mədəni və ticari münasibətlərimiz çox gözəldir. Təl-Əvivdən Bakıya birbaşa aviareyslər açılması sübut edir ki, ölkələrimiz arasında yaxşı sabit münasibətlər var. Pesax bayramı ərəfəsində bir gün ərzində Təl-Əvivdən Bakıya istirahət üçün 1000 nəfər israilli turist gəlib. Onlar Azərbaycan Hava Yollarının xidmətlərindən istifadə ediblər.

Azərbaycanda həyata keçirilmiş demokratik dəyişikliklər barədə sualımızın cavabında Hikmət Hacıyev haqlı olaraq deyir: "Biz demokratik dövlətə çevrilmək yolundayıq. Heç də hər bir ölkə eyni demokratik modelə uyğun gəlmir. Bizim demokratiyanın cəmi 27 yaşı var. Demokratiya bir növ şüurların yarışıdır. Mülki hüquqlara, dini hüquqlara, siyasi hüquqlara nəzər salsanız görərsiniz ki, Azərbaycan bəzən onun imicinə ədalətsiz münasibətə görə əziyyət çəkir. Buna görə də biz buraya gələn, ölkəmizlə tanış olan, onun problemlərini anlayan, onları obyektiv qiymətləndirən və həqiqəti yaxından görən insanları yüksək qiymətləndirirrik".

Hikmət Hacıyev Bakıda koşer restoranı açılması barədə şövqlə danışdı. Qeyd etdi ki, kənd təsərrüfatından, təbabətdən başlamış müasir silahlara qədər İsrailin Azərbaycana təqdim etdiyi texnologiyalar çox vacibdir.

Hikmət Hacıyev deyib: "Bu geosiyasi xəritədə Azərbaycan öz yerindədir, mən həmişə zarafatla deyirəm ki, xəritəyə fikir versəniz mənim ölkəm Şərqdən Qərbə uçan quşa oxşayır və əgər siz həmin quşun bir qanadını qırsanız o uçmayacaq. Buna görə də deyirik ki, bizə hər iki qanad lazımdır".

**AZƏRTAC**

# YAP Nəsimi rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib





***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Əvvəlcə konfransda Dövlət Himni səsləndirilib. Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***

Tədbirdə YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin IV konfransından ötən müddət ərzindəki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı ölkəmizdə həyata keçirilən dövlət-gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışıb: "Azərbaycan dövlətçiliyinin müasir tarixinə adını əbədi həkk edən Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi illər milli tərəqqi, oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi yazılıb. Bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru iri addımlarla inamla irəliləyir".

Konfransda YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin sədr əvəzi Söhrab Həşimov hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni həyatında gənclərin uğurlarından danışıb.

Konfransda hesabat ətrafında çıxış edən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin departament direktorunun müavini Salman Salmanov, Azərbaycan Tibb Universitetinin prorektoru Orxan İsayev, Azərbaycan Dillər Universitetinin gənclər birliyin sədri Rəna Süleymanlı, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin gənclər birliyinin sədr müavini Elman İntiqam və başqaları dövlət-gənclər siyasətindən söz açaraq, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində gənclərimizin qazandıqları nailiyyətlərdən danışıblar.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək, müasir dövrümüzdə dövlət-gənclər siyasətinin ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşadığını bildirərək, Azərbaycan gəncliyinin ölkənin ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərdiyini, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə töhfələrini verdiklərini diqqətə çatdırıb.

Konfransda təşkilati məsələlərə baxılıb. YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin şurasına 35, idarə heyətinə isə 17 nəfərdən ibarət üzv, Salman Salmanov təşkilatın gənclər birliyinin sədri seçilib. Eyni zamanda sədrin müavinləri də seçiliblər.

Konfransda YAP Gənclər Birliyinin Ümumrespublika Hesabat-Seçki Konfransına nümayəndələr də seçilib.

Konfransda YAP Siyasi Şurasının üzvü, Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov çıxış edərək, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin respublikamızın hərtərəfli və sürətli inkişafı naminə həyata keçirdiyi çoxşaxəli və innovativ islahatlardan danışıb.

Millət vəkili Şahin İsmayılov dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə görülən işlərə diqqət yetirərək, həyata keçirilən dövlət-gənclər siyasətinə nəzər salıb.

"Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxışında ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni həyatında gənclərin uğurlarından danışıb. Bu gün ölkəmizdə gənclərlə bağlı kifayət qədər normativ sənədlərin mövcud olduğunu bildirib: "Məlum dövlət proqramları, həyata keçirilən layihələr gənclərin fəallığına stimul verir. Cənab Prezidentin gənclərlə görüşü və gənclərin qarşısında konkret vəzifələr qoyması Azərbaycanın gələcək inkişafının gənclərin əlində olduğunu bir daha təsdiqləyir".

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin birinci vitse-spikeri Ziyafət Əsgərov çıxışında ölkəmizin uğurlu inkişafına nəzər salıb. Azərbaycanın öz dinamik inkişafını təmin etdiyini və xalqımızın əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını bildirib: "Bu gün Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurların nəticəsidir ki, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuza sahibdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Azərbaycan kosmik ölkələr klubuna daxil olmaqla bölgədə liderlik mövqeyini daha da möhkəmləndirir, güclü ölkə olduğunu nümayiş etdirir".

Konfransda YAP Nəsimi rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransının qətnaməsi qəbul olunub.

Daha sonra YAP Nəsimi rayon təşkilatının gənclər birliyinin V hesabat-seçki konfransı iştirakçıları adından Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***




# Bakı Şəhər Baş Polis İdarəsində geniş əməliyyat müşavirəsi keçirilib

***Aprelin 22-də Bakı Şəhər Baş Polis İdarəsində cari ilin birinci rübündə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində görülən işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş əməliyyat müşavirəsi keçirilib.***

İdarənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Baş Polis İdarəsinin əməliyyat işləri üzrə rəis müavini, polis general-mayoru Elxan Həsənov rüb ərzində paytaxtın polis orqan və hissələri tərəfindən həyata keçirilən tədbirlərin nəticələri və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Qeyd olunub ki, bu ilin üç ayı ərzində paytaxtda Daxili İşlər Nazirliyi və Prokurorluq üzrə 3050 cinayət hadisəsi qeydə alınıb. Onların 89,1 faizi az ağır və böyük ictimai təhlükə törətməyən, 10,9 faizi ağır və xüsusilə ağır növlər olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələr 20 faiz, ehtiyatsızlıqdan adam öldürmələr 7 fakt, dövlət və ya bələdiyyə əmlakı oğurluqları 46,3 faiz, cibgirlik 32 faiz, dələduzluqlar 26,3 faiz, quldurluqlar 21,1 faiz, ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı isə 25 faiz azalıb.

Diqqətə çatdırılıb ki, cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyəti olub. Baş İdarənin və ərazi polis orqanlarının "Təhlükəsiz şəhər" xidmətinin operatorları tərəfindən 1384 hadisə aşkarlanıb. Kameraların arxiv görüntülərindən istifadə edilməklə 67 bağlı cinayət açılıb. Bununla yanaşı, 7 soyğunçuluq və quldurluq cinayəti törətmiş 12 nəfərdən ibarət 7 qrup, eləcə də 25 mənzil oğurluğu törətmiş 29 nəfərdən ibarət 14 cinayətkar qrup ifşa olunub.

Narkotiklərlə bağlı aşkarlanan 321 fakt üzrə qanunsuz dövriyyədən 183 kiloqramdan çox narkotik vasitə çıxarılıb.

Diqqətə çatdırılıb ki, paytaxt ərazisində baş vermiş 116 yol-nəqliyyat hadisəsində 33 nəfər ölüb, 107 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı 14,1 faiz, ölənlərin sayı 36,5 faiz, xəsarət alanların sayı isə 0,9 faiz azalıb.

Yol hərəkətinə nəzarət prosesində 173 min 467, o cümlədən sürət rejiminə əməl olunmaması ilə bağlı 85 min 145, ötmə və manevr qaydalarının pozulması ilə əlaqədar 9569, nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə olunması ilə bağlı 566 inzibati xəta aşkarlanıb.

Əməliyyat müşavirəsinə yekun vuran baş idarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov hesabat dövründə şəxsi heyətin xidməti, peşə və fiziki hazırlığının, maddi-texniki təminatının qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verdiyini, müxtəlif hüquqpozmaların, o cümlədən insan hüquq və azadlıqlarının pozulması hallarının əvvəlki dövrlə müqayisədə xeyli azaldığını qeyd edib. O, müşavirə iştirakçılarının diqqətini qarşıda duran bir sıra həlli vacib məsələlərə yönəldib, tapşırıq və tövsiyələrini verib, nöqsanların aradan qaldırılması yollarını izah edib.

# İsveçrənin Azərbaycandakı səfirinin diplomatik fəaliyyəti başa çatır



Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar İsveçrə Konfederasiyasının ölkəmizdəki səfiri Filip Ştadler ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Regionun mənzərəsini dəyişən Bakı-Tbilisi-Qars dəmir yolu xətti və ölkəmizin təşəbbüsü ilə həyata keçirilən digər layihələr haqqında danışan nazir Elmar Məmmədyarov bir sıra İsveçrə şirkətləri ilə bu xüsusda uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında enerji sahəsində səmərəli işbirliyinin mövcudluğuna toxunan tərəflər tezliklə Azərbaycan Respublikası hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın növbəti iclasının keçiriləcəyini bildiriblər. Görüş zamanı səfir Filip Ştadlerin ikitərəfli münasibətlərin inkişafı istiqamətindəki səyləri yüksək qiymətləndirilib. Səfir Filip Ştadler diplomatik fəaliyyəti müddətində Azərbaycan tərəfindən ona göstərilən dəstəyi xüsusilə qeyd edib və bu xüsusda öz təşəkkürünü bildirib. Nazir Elmar Məmmədyarov səfir Filip Ştadlerə gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.

# Nazirlərin Moskva görüşü: ehtimallar, ssenarilər və ümidlər

***Aprelin 15-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri Moskvada Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələr aparıblar. Prosesdə Rusiyanın xarici işlər naziri də iştirak edib. Danışıqlardan sonra bəyanat yayılıb. Tərəflər bütövlükdə müzakirələri müsbət qiymətləndiriblər. Ekspertlər də müəyyən analizlər əsasında proqnozlar verməyə çalışırlar. Hiss olunur ki, bir sıra hallarda real vəziyyəti deyil, kimlərsə özlərinə sərf edən ssenariləri ortaya atırlar.***

Əslində, Moskva danışıqları Vyana görüşündə əldə edilən razılıqların məntiqi nəticəsidir. Onları bu kontekstdən çıxarmaq reallığı təhrif etməkdir. Vyanada isə müəyyən məqamlar öz əksini tapmışdı. Məsələn, danışıqlar formatı dəyişməzdir. Moskvada bunu inkar edəcək bir hadisə baş vermədi. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyü vacib prinsip kimi nəzərə alınmalıdır. Moskvada da bu barədə danışılıb. Eyni zamanda, bir sıra humanitar addımların atılması da gündəmdə olub. Bütün bunlar nazirlərin Moskva görüşünün real mənzərəsini yaratmaq baxımından əhəmiyyətlidir. Həmin bağlılıqda bu görüşün geosiyasi təhlili üzərində bir qədər geniş dayanmağa ehtiyac görürük.


Nazirlərin Moskva görüşü: ehtimallar, ssenarilər və ümidlər

Newtimes.az 22.04.2019 10:00

Bakı, 22 aprel 2019 – Newtimes.az

Aprelin 15-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri Moskvada Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələr aparıblar. Prosesdə Rusiyanın xarici işlər naziri də iştirak edib. Danışıqlardan sonra bəyanat yayılıb. Tərəflər bütövlükdə müzakirələri müsbət qiymətləndiriblər. Ekspertlər də müəyyən analizlər əsasında proqnozlar verməyə çalışırlar. Hiss olunur ki, bir sıra hallarda real vəziyyəti deyil, kimlərsə özlərinə sərf edən ssenariləri ortaya atırlar. Əslində, Moskva danışıqları Vyana görüşündə əldə edilən razılıqların məntiqi nəticəsidir. Onları bu kontekstdən çıxarmaq reallığı təhrif etməkdir. Vyanada isə müəyyən məqamlar öz əksini tapmışdı. Məsələn, danışıqlar formatı dəyişməzdir. Moskvada bunu inkar edəcək bir hadisə baş vermədi. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyü vacib prinsip kimi nəzərə alınmalıdır. Moskvada da bu barədə danışılıb. Eyni zamanda, bir sıra humanitar addımların atılması da gündəmdə olub. Bütün bunlar nazirlərin Moskva görüşünün real mənzərəsini yaratmaq baxımından əhəmiyyətlidir. Həmin bağlılıqda bu görüşün geosiyasi təhlili üzərində bir qədər geniş dayanmağa ehtiyac görürük.

## Vyanadan sonra: növbəti müzakirələrin ümumi məqamları

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada apardıqları müzakirələrə ekspertlərin böyük maraq göstərməsi təsadüfi deyildi. Gözlənilirdi ki, danışıqlar hansısa məqamlara aydınlıq gətirəcək. Və ya bütövlükdə bu formatda danışıqların davam etdirilməsinin mənasının olub-olmaması dəqiqləşəcək. Bır sıra ekspertlər isə münaqişənin həllinin Rusiyanın əlinə keçdiyini qeyd edirdilər. İstənilən halda, danışıqların özünün baş tutması faktı kifayət qədər əhəmiyyətlidir.

Moskva danışıqlarında Rusiyanın xarici işlər naziri və ATƏT-in Minsk qrupunun həmsədrləri də iştirak ediblər. Yekunda ümumi bir bəyanat yayılıb ki, müzakirələrə müsbət qiymət verilib. Hətta orada vacib qərarlar alındığı da vurğulanıb. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə müzakirələri belə qiymətləndirib: "Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri... arasında əldə edilən razılaşmalar faydalıdır".

Azərbaycan XİN-in başçısı da Moskva görüşünü müsbət qiymətləndirib. Danışıqların faydalı və substantiv keçdiyini ifadə edib. Müzakirələrdə müəyyən dərəcədə irəliləyişin olduğunu vurğulayan Azərbaycan XİN başçısı problem yaradan bir sıra incəliklər ətrafında geniş fikir mübadiləsinin aparıldığını deyib. O cümlədən Dağlıq Qarabağın gələcək statusu, təhlükəsizlik məsələləri, qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması ilə bağlı müzakirələr baş tutub. Bu kontekstdə humanitar məsələlərə də diqqət yetirilib. Jurnalistlərin Bakıya, İrəvana və Dağlıq Qarabağa səfərlərinin təşkili, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması, həbsdə olanlarla yaxınlarının görüşmələri üçün şərait yaradılması kimi məsələlər də müzakirə edilib.

Ancaq tərəflər danışıqların detalları haqqında informasiya verməyiblər. Çünki konfidensiallığın saxlanması barədə öncədən razılıq olub. Erməni tərəfi də təxminən eyni qiymətləndirmə verib. Lakin onlar müəyyən məsələlərdə özlərinə sərf edən variantlardan bəhs edirlər. Erməni ekspertlər indi ikinci dərəcəli məsələlər üzrə razılığın əldə edilə bilməsindən danışırlar. Elə məsələlər ki, onlar birbaşa münaqişənin həllinə aparmır. Məsələn, həbsdə olanların yaxınları ilə görüşlərinin təşkili ümumi humanitar aspektdir. Bu, adi insanlıq əlamətidir və münaqişənin həllinə ciddi təsir etmir. Buna baxmayaraq, bu kimi addımlar qarşılıqlı etimadı artıra bilər.

Buna baxmayaraq, erməni ekspertlər Ermənistanın aktiv surətdə silahlandığını da vurğulayırlar. Onların fikirlərinə görə, Azərbaycanın hansı addım atacağı bəlli olmaz. İstənilən vaxt situasiya partlaya bilər. Buna görə də Ermənistan rəhbərliyi gözlənilməz varianta hazır olmağa çalışır.

Nəhayət, baş nazir Nikol Paşinyan Moskva danışıqları kontekstində deyib ki, Azərbaycan seçimini etməlidir: ya sülh danışıqları, ya da müharibə. O, Ermənistanın müharibədən qorxmadığını da deyib. Eyni zamanda, Ermənistanın kimsəni müharibə ilə qorxutmadığını söyləyib. Guya Ermənistan həmişə sülhə sadiq olub.

Danışıqlarla bağlı Ermənistan tərəfdə danışılanlar sırasında münaqişənin həllində "Medvedev planı"na qayıdıldığı haqqında fikrin səsləndirilməsi də diqqəti çəkir. 2016-cı ildə Ermənistana səfər edən Dmitri Medvedev demişdi: "Burada da bir çox siyasətçilər haqlı olaraq gələcək nəsillər qarşısında öz məsuliyyətlərini anlayırlar. Yəni ki, gələcək nəslə dondurulmuş deyil, həll olunmuş münaqişə ötürmək lazımdır. Problem odur ki, münaqişənin istənilən həlli bir tərəfi qane edəcək, digər tərəfi isə narazı salacaq. Əgər münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq, yəni onu tez bir zamanda həll etmək qərarından imtina etmək və münaqişənin həlli yolunda verilən insan itkiləri arasında seçim etməli olsam, mən yenə də ikincini seçərəm. Yaxşısı budur vəziyyət belə qalsın, amma qan tökülməsin".

## Azərbaycanın planı: münaqişənin həllinin əsas modeli

Bu, faktiki olaraq, münaqişənin dondurulmasına üstünlük vermək demək idi. İndi isə erməni ekspertlər iddia edirlər ki, 2016-cı ildə D.Medvedev gərginliyi artırmadan danışıqların aparılmasından bəhs etmişdi. Konkret olaraq, Rusiyanın baş naziri münaqişə zonasında texniki təchizat vasitəsilə tərəflərin davranışlarına nəzarət etmək fikrini irəli sürmüşdü. Burada da məqsəd aydındır: işğalı fakt kimi dəyişməz olaraq qəbul edib, hərbi əməliyyatların başlamasını əngəlləmək və Azərbaycanı güzəştlərə məcbur etmək. Lakin həm D.Medvedevin o zaman dediyi, həm də nazirlərin Moskva görüşündə müzakirə olunan məsələlər göstərir ki, erməni ekspertlər özlərinə sərf edən uydurma variantdan yazırlar. Biz, bilərəkdən erməni tərəfinin mövqeyini bir qədər geniş təqdim etməyə çalışdıq. Çünki onlar göstərir ki, İrəvan hələ də konstruktiv mövqeyə gəlməyib və vəziyyəti özünə sərf edən çərçivədə təqdim etməyə cəhd göstərir. Danışıqların real vəziyyəti isə başqa məqamlardan xəbər verir.

Moskva danışıqları Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin Vyanada apardığı danışıqların məntiqi davamıdır. Martın 29-da Avstriya paytaxtında keçirilən görüşdə tərəflər xarici işlər nazirlərinin danışıqları davam etdirməsi və dialoqda olmaları barədə konkret razılığa gəliblər. Bu, onların yaydıqları bəyanatda da öz əksini tapıb. Eyni zamanda, həmin bəyanatda humanitar məsələlərə də toxunulur və bu istiqamətdə konkret addımların atılması tövsiyə edilirdi. Bunlardan başqa, Vyanada danışıqların formatının dəyişmədiyi və Ermənistanın prosesi dalana dirəmək cəhdinin iflasa uğradığı da aydın oldu. Çünki həm danışıqlarda, həm də yayılan sənəddə iki dövlətin imzası vardı: Azərbaycan və Ermənistanın. Bu o demək idi ki, Ermənistanın yeni iqtidarının israr etməyə çalışdığı yeni format qəbul olunmayıb. Moskvadakı danışıqlara da məhz bu kontekstdə baxmaq lazımdır.

Əvvəla, söhbət kiminsə təşəbbüsü ələ almasından gedə bilməz. Dövlət başçıları Vyanada görüşür, nazirlər isə Moskvada. Moskva görüşü niyə Kremlin təşəbbüsü ələ alması kimi təqdim edilməlidir? Görünür, hələ də bir sıra dairələr münaqişənin ədalətli həllinə çalışmaqdan çox, hansısa böyük dövlətin marağına qulluq etməyə üstünlük verir. Təəssüf ki, onların sırasında Azərbaycanda olanlar da vardır.

İkincisi, danışıqların nəticələri barədə deyilənlər göstərir ki, başlıca olaraq fikir mübadiləsi davam etdirilib və Ermənistanda yeni hakimiyyətə gələnlərin nəzərinə çatdırılıb ki, münaqişə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmasa, həll edilə bilməz. Ermənistan işğalçı qüvvələri zəbt etdikləri Azərbaycan ərazilərindən çəkilməli, yurdlarından didərgin salınmış Azərbaycan vətəndaşları geri qaytarılmalıdırlar. Bütün bunlardan sonra digər məsələlər konkret həllini tapa bilər.

O başqa məsələdir ki, Azərbaycan heç zaman insani, humanitar məsələlərin həllinə etiraz etməyib. Buraya ilk növbədə girovların dəyişdirilməsi daxildir. Ancaq yenə də İrəvan bu məsələni təxirə salmağa çalışır. Bundan əlavə, həbsdə olanların yaxınları ilə görüşlərin təşkilinə Azərbaycanın etirazı yoxdur. Bunlarla yanaşı, erməni jurnalistlərin Bakıya, azərbaycanlı jurnalistlərin isə İrəvana səfərləri qəbul edilə bilər. Çünki belə ünsiyyətdə daha yaxşı aydın olur ki, işğalçı kimdir və real sülh üçün o, hansı addımları atmalıdır. Erməni jurnalistə Bakıda bunu aydın başa sala bilərlər. Eyni zamanda, İrəvanda azərbaycanlı jurnalist oradakılara eyni həqiqəti bir daha çatdıra bilər.

Bunlar onu göstərir ki, Moskva danışıqlarını müsbət qiymətləndirməklə yanaşı, onu hansısa kənar qüvvənin siyasi uğuru kimi qiymətləndirmək də doğru deyil. Azərbaycan xalqı çox belə manevrləri görüb. Onu aldatmaq mümkün deyildir. Real olanı budur ki, Azərbaycan dövləti və cəmiyyəti bir yumruq kimi birləşib, ərazi bütövlüyünü bərpa etməklə məşğuldur. Burada kiminsə qalib gəlməsi və ya uduzması özlüyündə hədəf deyil. Hədəf torpaqların işğaldan azad edilməsidir. Moskvada aparılan danışıqlar bu yolda uğurlu addımlardan biri olacaqsa, çox yaxşı. Bunu isə zaman göstərəcək.

***Newtimes.az***

# “Ölkəmizdə həyata keçirilən islahatları xalqın dəstəkləməsi anti-Azərbaycan qüvvələri narahat edir”



***Beynəlxalq anti-Azərbaycan şəbəkəsi son günlər yenidən fəallaşmağa başlayaraq ölkəmiz əleyhinə qarayaxma kampaniyasına start verib. Bu, əlbəttə, təsadüfi deyil. Çünki 2019-cu ildə Azərbaycan bir sıra mühüm əhəmiyyətli beynəlxalq layihələrini başa çatdıracaq, mühüm sazişlərə imza atacaq, ötən illərdə həyata keçirilən islahatların bazasında milli iqtisadiyyatın daha da böyüməsini təmin edəcək, beynəlxalq nüfuzundan istifadə etməklə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində real nəticələr əldə etməyə çalışacaq, sosial islahatları davam etdirməklə, yeni, daha effektiv sosial-iqtisadi model yaratmaqla öz vətəndaşlarının rifahı üçün yeni əlverişli şərtlər formalaşdıracaq, ordu quruculuğu işini davam etdirəcək.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu söyləyib. Deputat qeyd edib ki, hazırkı mürəkkəb beynəlxalq və regional şərtlər içərisində ölkəmizin əldə etdiyi bu qədər uğur, heç şübhəsiz, anti-Azərbaycan mövqeli mərkəzləri ciddi şəkildə narahat edir. Ən çox narahatlıq keçirən isə işğalçı Ermənistan və onun beynəlxalq havadarlarıdır.

Milli Məclisin deputatı qeyd edib ki, erməni simpatizanı olan bu beynəlxalq şəbəkə islamofob mərkəzləri və ölkəmizdə yaratmağa çalışdıqları “5-ci kalon” üzvlərini də səfərbər edərək Azərbaycanı gözdən salmaq, onun beynəlxalq nüfuzuna zərbə vurmaq istəyirlər. Bir qədər konkret ifadə etməyə çalışsaq görəcəyik ki, hazırda anti-Azərbaycan şəbəkənin ən çox siyasi istismara məruz qoyduğu mövzu Azərbaycanın Avropa İttifaqı ilə imzalayacağı strateji tərəfdaşlıq sazişidir. Bunun başlıca səbəbi həmin sazişdə Avropa İttifaqına üzv ölkələrin hamısı tərəfindən bir daha Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinin öz əksini tapacağıdır. Bu, işğalçı Ermənistan və onun lobbisi ilə əlaqədar olan şəbəkəni ciddi şəkildə narahat edir. Çox maraqlıdır ki, Azərbaycandakı bəzi radikal müxalif marginallar da ölkəmizi məhz bu məsələdə tənqid etməklə əslində ermənilərlə sinxron hərəkət etdiklərini göstərirlər. Bunu isə Azərbaycan cəmiyyətinə guya Avropa İttifaqı ilə imzalanacaq sazişin milli maraqlarımıza cavab vermədiyi ilə izah etməyə çalışırlar. Ancaq, əlbəttə, ölkəmizdə hər kəs bunu başa düşür ki, radikallar eyni mərkəzdən sifariş almaqla milli maraqlarımıza qarşı əleyhdarlarımızla birgə çalışırlar.

Başqa bir mühüm məsələ ondan ibarətdir ki, bu il Cənub Qaz Dəhlizi layihəsi tamamlanacaq və beləliklə, ölkəmiz həm iqtisadi baxımdan daha da güclənəcək, həm də siyasi baxımdan beynəlxalq münasibətlər sistemində öz nüfuzunu bir qədər də artıracaq. Bu amil isə Dağlıq Qarabağ probleminin həllində bizi daha da güclü edəcək. Bu da işğalçı Ermənistanın lehinə deyil. Nəhayət, ən ümdə məsələlərdən biri Azərbaycanda həyata keçirilən kompleks islahatlar və onun xalq tərəfindən dəstəklənməsidir. “Opinion Way” sorğu şirkətinin anketlərində əksini tapan xalq-iqtidar birliyi nümunəsi də anti-Azərbaycan mərkəzlərin ciddi narahatlığına səbəb olub. Məsələ ondadır ki, Azərbaycanın inkişafına və müstəqil siyasətinə mane ola bilməyən güc mərkəzləri onu daxildən parçalamaqla zəiflətmək və beləliklə də Qarabağ problemini birdəfəlik yaddan çıxarmaq istəyirlər. Diqqət etsək görərik ki, nə xaricdə bizə qarşı fəaliyyət göstərən “mühacirət müxalifəti”, nə də Azərbaycanda olan marginallaşmış müxalif qrup problemlərdən danışan zaman bir dəfə də olsun Qarabağ problemindən danışmırlar. Çünki onlar, sadəcə, anti-Azərbaycan mərkəzlərdən aldıqları təlimatla hərəkət edirlər. Bütün bunlar isə Azərbaycan xalqının diqqətindən əsla yayınmır və xalqımızı öz liderinin ətrafında daha sıx birləşməyə sövq edir.

## Fuad Muradov: Azərbaycan dövləti hər zaman xaricdə yaşayan soydaşlarımızın yanındadır



Azərbaycan dövləti hər zaman xaricdə yaşayan soydaşlarımızın yanındadır və onların dilimizi, mədəniyyətimizi, adət-ənənələrimizi qoruyub saxlamasına, yaşatmasına dəstək göstərir. Azərbaycan-Fransa əlaqələrinin inkişafında mühüm rolu olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mədəniyyətimizin bu ölkədə təbliğinə xüsusi diqqət yetirir, burada yaşayan soydaşlarımızın problemləri ilə maraqlanır. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Fransada çoxsaylı böyük layihələr həyata keçirilib.

Bu fikirləri Nant şəhərində “Qarabağ” Azərbaycan məktəbinin açılışında iştirak edən Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov AZƏRTAC-a müsahibəsində söyləyib. Komitə sədri qeyd edib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və tövsiyəsi ilə Fransada yaşayan soydaşlarımızla bağlı vəziyyət yaxından öyrənilib. Diasporla İş üzrə Dövlət Komitəsi bununla bağlı bir sıra işlər görüb və Fransada icma üzvləri ilə görüşlər keçirib. Fransada ən böyük azərbaycanlı icması Nant şəhərindədir. Ötən il burada icma üzvləri il görüşdük və onların istəkləri ilə tanış olduq. İcma üzvlərinin əksəriyyəti təhsil layihəsini dəstəklədi. Bu gün çox sevinirik ki, qısa müddətdə onların arzusu reallaşdı. İcmanın təşkilatçılığı, dəstəyi və Dövlət Komitəsinin iştirakı ilə “Qarabağ” Azərbaycan məktəbinin açılışında iştirak etdik.

# “Anti-Azərbaycan qüvvələrinin məkrli siyasətinə imkan verilməyəcək”



“Azərbaycanın gücü artdıqca, mövqeyi möhkəmləndikcə, dünya miqyasında nüfuzu yüksək səviyyəyə qalxdıqca ölkəmizi istəməyən həm xaricdə, həm də daxildə olan anti-milli qüvvələr fəaliyyətə keçməyə başlayırlar. Onların əsas məqsədi Azərbaycanı nüfuzdan salmaq, daxildə gedən proseslərə mane olmaqdır”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Fəzail Ağamalı deyib.

O bildirib ki, xüsusilə də son zamanlar anti- Azərbaycan qüvvələrlə Ermənistanın rəsmi mövqeyinin üst-üstə düşməsi çox təəssüf doğurur. Deputatın sözlərinə görə, bu cür insanlar anti-Azərbaycan mövqeyində dayanmaqla, əslində dövlətimizə, xalqımıza, ermənilərlə bərabər zərbə vurmağa çalışırlar: “Əlbəttə bu gün Azərbaycan güclü dövlətdir. Ölkəmizin beynəlxalq səviyyədə böyük nüfuzu olmaqla yanaşı, dünyanın güc mərkəzləri ölkəmizin mövqeyini qəbul edir, Avropaya vermiş olduğu töhfələri yüksək qiymətləndirir “. Azərbaycanda möhkəm xalq-hakimiyyət birliyinin olduğunu deyən F. Ağamalı söyləyib ki, bu yaxınlarda Fransanın “Opinion Way” şirkəti tərəfindən hazırlanan sosial sorğunun nəticələri də buna sübutdur. Bütün bunlar ciddi faktor və anti-Azərbaycan qüvvələrinin ölkəmizə qarşı yönəlmiş məkrli siyasətinin həyata keçirməsinə imkan vermir və verməyəcək. Sadəcə olaraq hər bir vətəndaş dövlətinin yanında olmalı, ölkəmizdə sabitliyi pozmağa, qarşıdurma yaratmağa cəhd göstərmək istəyənlərə qarşı qətiyyətli iradə nümayiş etdirməlidir”.

***Nailə Məhərrəmova***

# Marqo dö Kastro: Azərbaycanla əlaqələrin inkişafına töhfə verməyimə görə çox şadam



Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində təcrübədə oldum və bu, mənə Azərbaycanı yaxından tanımağa imkan yaratdı. Səfirlik, eləcə də Azərbaycanın Dostları Assosiasiyası ilə bu günə qədər davam edən sıx əlaqələrim var. Bunun sayəsində bu gün Azərbaycan-Montro-Fot-Yonn əlaqələri mənə həvalə edilib. Azərbaycanla əlaqələrin inkişafına töhfə verməyimə görə çox şadam.

Bu fikirləri Montro-Fot-Yonn Meriya Şurasının Azərbaycan üzrə əlaqələndirici Marqo Qomes dö Kastro AZƏRTAC-a müsahibəsində bildirib.

O deyib ki, Azərbaycanın bir neçə ildir Montro-Fot-Yonn şəhəri ilə əlaqələri var. “Bakı ulduzları” ansamblı Azərbaycan milli rəqslərini burada təqdim edib. Bu əlaqələrin inkişaf səviyyəsi qardaşlaşma layihəsinə gətirib çıxardı. Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev şəhərimizə səfər etdi və mer Ceyms Şeronla əlaqələrin perspektivləri ilə bağlı müzakirələr apardı. Mədəniyyət və təhsil sahələrində əlaqələrimizi daha da genişləndirmək üçün böyük potensial var. Şəhərimizdə Rəqəmsal Akademiya fəaliyyət göstərir. Məqsəd distant təhsili təmin etməkdir. Müxtəlif universitetlərdə təhsil almaq tələbələr üçün bəzən maliyyə çətinlikləri yaradır və bu çətinliklərin aradan qaldırılması məqsədilə distant proqramlardan ibarət təhsili təmin edirik. Bundan azərbaycanlı gənclər də yararlana bilərlər. Biz qardaşlaşmaq istədiyimiz Naxçıvanın nümayəndə heyətini burada görməkdən şad olardıq. Haqqında çox məlumat aldığımız Naxçıvana getmək istəyirik. Qarşılıqlı səfərlər bir-birimizi daha yaxından tanımağa imkan verəcək.

# “Şahdəniz”dən bu vaxtadək 104 milyard kubmetr təbii qaz hasil edilib



İndiyədək Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” qaz-kondensat yatağından 104 milyard kubmetrdən çox təbii qaz hasil olunub. AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın IV beynəlxalq “Xəzər və Mərkəzi Asiya: Neft emalı, Neft-kimya, Ticarət, Logistika” Forumunda energetika naziri Pərviz Şahbazov deyib. O bildirib ki, yataqdan, həmçinin 25 milyon ton kondensat çıxarılıb.

# “Bakcell”dən uşaq şahmat turnirinə növbəti dəstək



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell 7-12 aprel 2019-ci il tarixlərində Bakı şəhərində keçirilmiş uşaqlar arasında 18-ci beynəlxalq şahmat turnirinə dəstək göstərib.

Frankofoniya günlərinə həsr edilmiş bu ənənəvi turnir “Gənclik” Şahmat Klubu və Fransanın Azərbaycandakı Səfirliyi tərəfindən Azərbaycan Şahmat Federasiyasının təşkilati dəstəyi ilə keçirilib. İsveçrə sistemi üzrə keçirilmiş turnirdə Azərbaycan, Fransa, Böyük Britaniya, Gürcüstan, Rusiya, Ukrayna, Almaniya, Serbiya və Qazaxıstandan 80-dən çox gənc şahmatçı iştirak edib. Turnirin nəticələrinə əsasən “A” qrupunun qalibi Azərbaycandan Altay Eynullayev olub. O, Fransada keçiriləcək turnirdə iştirak etmək hüququ qazandı. “B” qrupunda isə ukraynalı Mariya Timchenko ən yüksək nəticə göstərib.

Bakcell şirkəti artıq bir neçə ildir ki, ölkəmizdə keçirilən beynəlxalq uşaq şahmat turnirlərinə öz dəstəyini əsirgəmir. Özünün “Bakcell Stars” Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə şirkət Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaqlara yönəlmiş genişmiqyaslı layihələri həyata keçirir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

23 aprel 2019-cu il

# Dövlətimiz və xalqımız anti-Azərbaycan kampaniyası aparan qüvvələrə layiqli cavab verir

*Ermənipərəst qüvvələrin dəstəkçiləri "beşinci kolon" - özlərini "demokratik cəbhə" altında kamufilə edən xəyanətkar dağıdıcı müxalifət "liderləri" onların xarici ölkələrdə "siyasi mühacir", "dissident" kimi təqdim edən sosial şəbəkələrdəki quyruq bulayanlarıdır*

***Bəllidir ki, Azərbaycanın müstəqil daxili və xarici siyasəti, yüksək beynəlxalq imici, dünyada baş verən hadisələr və gedən proseslərə öz münasibəti, o cümlədən, artan iqtisadi gücü, xüsusilə, son vaxtlar reallaşdırılan inqilabi islahatlar bəlli anti-Azərbaycan xarici dairələri, ermənipərəst qüvvələri ciddi narahat edir. O da sirr deyil ki, Azərbaycana qarşı güclənən çirkin qarayaxma kampaniyasının əsasında dövlətimizin heç bir qüvvənin qarşısında əyilməməsi, öz mövqeyini müdafiə etməsi Prezident İlham Əliyev tərəfindən aparılan ardıcıl, prinsipiallığa söykənən qətiyyətli və müstəqil siyasət durur. Bu baxımdan, zaman-zaman həyata keçirilən qarayaxma kampaniyaları xarici anti-Azərbaycan və erməni lobbisinin növbəti dəfə beynəlxalq ictimai rəyi çaşdırmaq, Azərbaycanın yüksək nüfuzunu ləkələmək cəhdidir.***

Söz yox ki, ermənipərəst qüvvələrin əsas dəstəkçiləri "beşinci kolon" adlandırılan və özlərini "demokratik cəbhə" altında kamufilə edən satqın, xəyanətkar, dağıdıcı küçə təfəkkürünə malik dağıdıcı müxalifət "liderləri" onların xarici ölkələrdə "siyasi mühacir", "dissident" kimi təqdim edən sosial şəbəkələrdəki quyruq bulayanlarıdır.

## Beləlləri hər bənzər cəhdlərlə xalqın hiddəti ilə qarşı-qarşıya qalırlar

Qeyd edək ki, məlum məqsədlərlə qərəz, şər-böhtan yağdıran bu qüvvələrin iddiaları normal, sağlam düşüncələrə sahib ictimaiyyət tərəfindən əsla qəbul edilmir. Əksinə, belələri hər bənzər cəhdlərlə xalqın hiddəti ilə qarşı-qarşıya qalırlar. Gah "inqilab", gah "davamlı mitinqlər", gah da xarici dipkorpuslara yalan donosları ötürənlər nəticədə heç bir istəklərinə çatmamaqla yanaşı, həm də daha ağır məğlubiyyətlərə tuş gəlirlər.

Hər hansı bir ölkədə bu və ya digər ictimai-siyasi proseslər baş verirsə, harada aş, orada baş kimi görünən "demokratiya aşiqləri" dərhal "inqilabdan" dəm vurur, bununla da anti-Azərbaycan qüvvələrlə iş birliyində olduqlarını açıq-aşkar nümayiş edirlər. İndiyə qədər Soros fondu daxil olmaqla, bir çox xarici təşkilatlar dəfələrlə öz çirkin niyyətlərini gerçəkləşdirməyə cəhdlər göstərsələr də, onların həmin cəhdləri iflasa uğrayıb.

## Beynəlxalq aləm Azərbaycan dövlətinin siyasi nüfuzunu qəbul edir və bunda maraqlı olduğunu nümayiş etdirir

Onlar daha bir gerçəyi unudurlar ki, Azərbaycan regionda və dünyada müstəqil siyasət yürütməklə yanaşı, eyni zamanda, qonşu dövlətləri, eləcə



də, Avropa dövlətləri və digər dünya ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq əlaqələri mövcuddur. Bu, ondan irəli gələn haldır ki, beynəlxalq aləm Azərbaycan dövlətinin siyasi nüfuzunu qəbul edir və bunda maraqlı olduğunu nümayiş etdirir. Habelə, dövlətimiz bütün beynəlxalq tribunalarda öz haqq səsini ucaldır, ayrı-ayrı siyasi-iqtisadi məsələlərə dair müstəqil mövqeyini bildirir, təşəbbüskar olaraq çıxış edir, eləcə də mötəbər tədbirlərə ev sahibliyi edir. Bu da Azərbaycanı gözü götürməyən qüvvələrin qısqanclığı ilə qarşılanır. Ölkəmizə qarşı aparılan qara kampaniyalarda islamofobiya meyilləri də mövcuddur. Həmçinin, bu və ya digər bu kimi bənzər qarayaxma kampaniyalarında erməni lobbisinin izi həmişə özünü göstərir.

Eyni zamanda, dünyada bəzi dairələr mövcuddur ki, onlar heç vaxt Azərbaycanın müstəqil dövlət olmasını, öz iradəsinə arxalanaraq daxili və xarici siyasət yürütməsini həzm edə bilmirlər. Bu cür qüvvələr istəyirlər ki, Azərbaycan sözəbaxan dövlət olsun və ölkə ərazisindən başqa dövlətlərə qarşı həm siyasi, həm də hərbi təzyiq vasitəsi kimi istifadə edə bilsinlər.

## Erməni lobbisi və bəzi xarici dairələrin təsiri altında həyata keçirilən bu çirkin kampaniya əvvəlkilərtək uğursuzluqla nəticələnəcək

Bu baxımdan, bir milyondan artıq qaçqın və məcburi köçkünlərimizin hüquqlarının təcavüzkar Ermənistanın işğalçılıq siyasəti nəticəsində pozulduğu halda, bəlli "insan hüquqları təşkilatları" "siyasi məhbus" və s. qeyri-real məsələləri qabartmağa çalışırlar. Lakin hər kəs, o cümlədən, nüfuzlu beynəlxalq təşkilatlar da yaxşı bilir və dərk edirlər ki, məkrli qüvvələrin məqsədi xalqımızın milli maraqlarına qarşı yönəlib. Onlar xalqın milli maraqlarından çıxış edən, xalqın iradəsi ilə dəstəklənən Azərbaycan hakimiyyətinə təsir etmək, yürüdülən müstəqil siyasətə mane olmağa çalışırlar. Ancaq dövlətimiz və xalqımız anti-Azərbaycan kampaniyası aparan qüvvələrə layiqli cavab verir. Ona görə də, əminliklə deyə bilərik ki, erməni lobbisi və bəzi xarici dairələrin təsiri altında həyata keçirilən bu çirkin kampaniya əvvəlkilərtək uğursuzluqla nəticələnəcək.

## Ermənilərin konyak diplomatiyasının girovları

Həmçinin, qarayaxma kampaniyalarında siyasi sifarişləri yerinə yetirərək, korrupsiyaya bulaşmış bir sıra xarici media qurumları da var ki, onlar erməni lobbisinin konyak diplomatiyasının girovlarına çevriliblər. Məhz bu qəbildən olan medialarda, məsələn, "Washington Post", "The Guardian", "BBC", "Amerikanın səsi" və s. qurumlarda zaman-zaman Azərbaycanla bağlı mənfi yazıları oxuyanda bu hisslər daha çox görünməyə başlayır. Belə ki, əgər nəzərə alsaq ki, vaxtaşırı və planlaşdırılmış şəkildə yürüdülən qarayaxma kampaniyalarına xeyli sayda qlobal çirkab maşınlarının qoşulması da bəllidir. Yəni bütün bunlar bir mərkəzdən yönləndirilir - həmin mərkəzdən ki, öz maraqlarından başqa maraq tanımır. Həmin maraqlar reallaşanda bunun nəyə aparıb çıxardığını isə biz indi xaos girdabında çabalayan bir çox ölkələrin, xüsusilə "ərəb baharından" paylarını almış Liviyanın, Suriyanın, Yəmənin və s. ölkələrin təcrübəsində görürük.

Azərbaycana qarşı məlum kampaniyalar daxilində informasiya müharibələri də aparılır. Bu amil də, məqsəd olaraq, dövlətimizi zəifləmək, ölkəmizin həyata keçirdiyi nəhəng beynəlxalq layihələrin və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinin qarşısını almaq, "5-ci kolon" yaratmaq və dövlətimizin artan nüfuzuna ləkə gətirməkdən ibarətdir. Əlbəttə ki, burada öz iqtisadi maraqları olan qaranlıq dairələrin olması şübhəsizdir. Fəqət, fakt budur ki, illərdir ki, belə çirkin siyasətləri ilə ölkəmiz, dövlətimiz ətrafında vargəl edən məlum qərəzli təşkilat və qurumlar və onların Azərbaycandakı nökərləri bu dəfə də ağır məğlubiyyət alaraq, "beşinci kolon" adı altında düşdükləri çirkab bataqlığında məhvə sürünəcəklər. Hər zaman belə olub, bu dəfə də belə olacağına heç bir şübhə yoxdur.

**Rövşən NURƏDDİNOĞLU**

# Elman Nəsirov: "Antimilli ünsürlərin və onların xarici havadarlarının siyasi hoqqabazlıqları uğursuzluğa məhkumdur"

***Proqnozlar özünü tam doğrultmaqdadır. Azərbaycan əleyhinə olan beynəlxalq siyasi dairələr və onların miskin əlaltısına çevrilmiş antimilli ünsürlər yenidən fəallaşmaqdadırlar. Həmin qüvvələr Azərbaycanın müstəqil siyasət yürüdən güclü dövlətə çevrilməsindən, habelə qarşıdan gələn dövrdə ölkəmizin bir sıra mühüm tədbirlərə ev sahibliyi edəcəyindən, "Cənub Qaz Dəhlizi" layihəsinin tamamlanacağından, Azərbaycan ilə Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sazişinin imzalanacağından, ölkəmizin Qoşulmama Hərəkatına sədrlik edəcəyindən ciddi narahatdırlar.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, professor Elman Nəsirov bildirib. Elman Nəsirov deyib: "Azərbaycanın uğurlarını həzm edə bilməyən xarici və daxili bədxahlarımız unutmasınlar ki, heç bir qüvvə ölkəmizi öz düzgün yolundan sapdıra bilməz. Taleyimiz öz əlimizdədir. Ölkəmizdə mövcud xalq-hakimiyyət birliyi sarsılmazdır. Xalq Prezident İlham Əliyevi birmənalı olaraq dəstəkləyir. Prezident də hər hansı beynəlxalq siyasi dairələrin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirir. Bu, xalq-hakimiyyət birliyini güclü edən həlledici amildir. Eyni zamanda, bu, monolitliyin xarici bədxahlarımızın və "sapı özümüzdən olan baltalar"ın hədəfinə çevrilməsini şərtləndirən mühüm səbəbdir. Qoy antimilli ünsürlər və onların xarici havadarları unutmasınlar ki, onların siyasi hoqqabazlıqları həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa məhkumdur. Səbəbi də sadədir. Hakimiyyətin mənbəyi olan xalqımız görür və əmindir ki, Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursu yalnız milli maraqların müdafiəsinə əsaslanır, istənilən dövlət və ya beynəlxalq təşkilatla bərabər hüquq, qarşılıqlı hörmət, qarşılıqlı faydalı əməkdaşlıq, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə söykənir. Bu baxımdan Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı və onun inkişaf göstəricisi olan strateji tərəfdaşlıq sazişinin imzalanma prosesinə hazırlanması da eyni yanaşmalardan qaynaqlanır. Antimilli ünsürlərin işçi sənəd səviyyəsində olan bir sazişin mətni ilə tanış olmadan onu tənqid atəşinə tutmaları əslində onların qaragüruhçu, qurucu deyil, dağıdıcı xislətlərinin ifadəsidir.

"Radikal müxalifət və onların tör-töküntülərinin nəzərinə çatdırırıq ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair müvafiq bəndin guya sənəddə əks olunmamasına dair sizin "öngörməniz" əslində "siyasi korluq"dan başqa bir şey deyil. Bəsirət gözünüz açılsa, görərsiniz ki, qeyd edilən sazişdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı müvafiq maddələrin əks olunmasını şərtləndirən kifayət qədər ciddi səndlər mövcuddur. Beləliklə, ermənilər, ermənipərəstlər, antimilli ünsürlər, milli dönüklər və qaragüruhçu tör-töküntülər, sizin keçirdiyiniz təlaş, həyəcan və qorxunun motivlərini başa düşürük. Sizin Azərbaycandakı sabitliyin, təhlükəsizliyin, inkişafın daha da möhkəmləndirilməsinə və bunun əsasında dayanan xalq-hakimiyyət birliyinin sarsılmaz qüvvəyə çevrilməsinə xidmət edən istənilən addımdan vahimələndiyinizin də fərqindəyik. Müdrik xalqımız sizi hələ keçən əsrin 90-cı illərinin əvvəllərindən çox yaxşı tanıyır. Xalqımızın yaddaşına siz "xaos" və "anarxiya" sözlərinin sinonimi kimi həkk olunmusunuz. Xalqı bir dəfə aldatdınız, daha yetər. Çəkilin siyasi səhnədən! Qorxun, el qınağı yaman olur..." - deyə Elman Nəsirov bildirib.

# Reza Rəhmani: İranla Azərbaycanın münasibətləri qarşılıqlı etimada əsaslanır



İran ilə Azərbaycan arasındakı iqtisadi və ticarət əlaqələri yüksələn xətlə inkişaf edir. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycana səfərinin yekunları barədə mətbuata verdiyi açıqlamada İranın sənaye, mədən və ticarət naziri Reza Rəhmani deyib. Nazir bildirib ki, hər iki ölkənin prezidentinin siyasi iradəsi nəticəsində dövlətlərarası münasibətlər tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hər iki ölkə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına çalışır və bu istiqamətdə birgə layihələr həyata keçirilir.

Nazir nəzərə çatdırıb ki, Hacıqabulda avtobus istehsalı müəssisinin açılışı perspektivdə tərəflər üçün faydalı olacaq. İldə 500 ədəd avtobus istehsal etmək imkanına malik olan müəssisənin qurulması üçün yatırılan sərmayənin 75 faizi İrana, 25 faizi isə Azərbaycana məxsusdur. R.Rəhmani bəyan edib ki, iki qonşu və dost ölkənin münasibətləri qarşılıqlı etimada dayanır. İran Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyir. İran regionda daim sülhün və sabitliyin hökm sürməsində maraqlıdır və öz siyasətini bu istiqamətdə həyata keçirir.

# Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndəsi

## *Dövlət başçısı İlham Əliyevin imzaladığı Sərəncam əsasında Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi keçiriləcək*

***Azərbaycan ictimai fikrinin böyük nümayəndələrindən biri, görkəmli publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas-alim Əhməd bəy Ağaoğlu çoxşaxəli fəaliyyəti ilə tariximizdə seçilən şəxsiyyətlər sırasında yer alıb. 1869-cu ildə Şuşada anadan olan Əhməd bəy Ağaoğlunun bu il 150 illik yubileyidir. Bu günlərdə Azərbaycan Prezidenti Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.***



Sərəncama əsasən, Azərbaycan ictimai fikri tarixində dərin iz qoymuş mütəfəkkir Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə görkəmli ictimai xadim Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb, həyata keçirəcək.

Əhməd bəy Ağaoğlu ötən əsrin əvvəllərindən etibarən, Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etmiş və milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınmışdır. Ümumxalq mənafeyinin qorunması naminə çoxşaxəli, gərgin və məhsuldar fəaliyyəti ərzində, o, parlaq bədii-publisistik və dolğun elmi-nəzəri irs yaratmış, Azərbaycanın ədəbi-mədəni və sosial-fəlsəfi fikir xəzinəsinin yeni ideya və konsepsiyalarla daha da zənginləşməsində diqqətəlayiq xidmətlər göstərmişdir. Əhməd bəy Ağaoğlunun ictimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəlməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran geniş mövzu dairəsinə malik dərin məzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfədir.

Fransada təhsil aldıqdan sonra geri qayıdaraq Avropa demokratik ideyalarından və fransız şərqşünas-alimlərinin əsərlərindən təsirlənən Əhməd bəy tezliklə Azərbaycan xalqının milli özünüdərketmə və türkçülük ideyalarının yayılması işinə başlayır. O, 1894-cü ildə Tiflis, sonra isə 1896-cı ildə Şuşa Gimnaziyasında fransız dilindən dərs deyərək, el arasında “Firəng Əhməd” ləqəbini alır. Əhməd bəy Şuşada ilk dəfə qiraətxana-kitabxana açır.

1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gəlib, “Kaspi” qəzetinin baş redaktoru olur. O, həmçinin, Ə.Hüseynzadə ilə “Həyat” qəzetinə də redaktoruluq edib.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Qafqaz İslam Ordusu Komandanının siyasi müşaviri olmuşdur. AXC dövründə Bakıda parlamentə üzv seçilir. Cümhuriyyətin Paris Sülh Konfrasında iştirak etmək üçün göndərdiyi nümayəndə heyətinin tərkibində Ağaoğlu da var idi. Lakin İstanbula çatanda, “İttihad və Tərəqqi” partiyasının digər rəhbərlərilə birgə ingilislər tərəfindən həbs olunaraq, Malta adasına sürgün olunur.

Sürgündən qayıtdıqdan sonra kamalçılarla yaxınlaşaraq, Ankara İnformasiya Agentliyinə rəhbərlik etmiş, “Hakimiyyəti-milliyyə” qəzetinin baş redaktoru olmuş, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçildikdən sonra Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi olmuşdur.

Əhməd bəy əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsili inkişafından keçdiyini bildirirdi. Qadın azadlığı ideyalarını yayan və bunu azadlıq mücadiləsinin əsas faktoru kimi göstərən Ağaoğlu Azərbaycan ziyalıları arasında qadına bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan idi. 1901-ci ildə çapdan çıxan “İslam dünyasında qadın” adlı kitabında “azad qadınsız milli inkişaf ola bilməz” fikrini sübuta yetirir. Əhməd bəy Ağaoğlunun bu arzu və ideyaları tezliklə reallığa çevriləcəkdir. 1918-ci ildə qurulmuş Şərqdə ilk demokratik cümhuriyyət Azərbaycan Demokratik Cümhuriyyətində o dövr, nəinki Şərqin, hətta Qərbin ABŞ və Böyük Britaniya kimi qabaqcıl dövlətlərinə nümunə olacaq bir hadisə - Azərbaycan qadınına seçkilərdə səsvermə hüquqlarının verilməsi ilə Əhməd bəyin ideyaları gerçəkləşir.

Ağaoğlu Transqafqaziya seyminə keçirilən seçkilərdə müsəlman fraksiyasından üzv seçilir və bu müddətdəki fəaliyyəti ilə 1905-ci ildə etnik erməni-müsəlman qarşıdurmalarının qarşısının alınmasında böyük rol oynamışdır. Bir qədər sonra onun millətçi fikirlərindən və sosial-inqilabi düşüncələrindən təşvişə düşən erməni daşnaklarının təhdidlərinə cavab olaraq, türk-müsəlman xalqlarının hüququnu qorumaq üçün “Difai” adlı özünümüdafiə təşkilatı yaradır. Çar Rusiyasının erməni hakimiyyət nümayəndələri Qarabağda etnik təmizləmə işinə başladığı bir dövrdə “Difai” təşkilatı bu siyasətin qarşısını almaq vəzifəsini və Azərbaycan türklərinin milli təhlükəsizliyinin təmin olunmasını öz üzərinə götürdü. Lakin ruslar bunu qəbul etmədilər. Osmanlı imperiyasında geniş vüsət almış “Gənc Türk” İnqilabi Hərəkatından təşvişə düşmüş çar qüvvələri onun kitab və məqalələrinə “Pantürkist” adını verərək, təqib etməyə başladılar. Aylarla dostlarının evində gizlin yaşayan Əhməd bəy təqib və mümkün həbslər səbəbindən, 1908-ci ilin sonlarında Türkiyəyə-İstanbula köçməli olur. Türk Ocağı Türk Milli Hərəkatının aparıcı siması olan Ağaoğlu bu hərəkatın keçirilmiş konqresinə prezident seçilir. 1910-cu ildə isə ailəsi Türkiyəyə köçür.

Ə.Ağaoğlu 1909-cu ilin əvvəllərində İstanbulda maarif sahəsində müfəttiş, sonra isə Süleymaniyyə kitabxanasının müdiri vəzifəsində çalışır. 1909-cu ilin oktyabrından İstanbul Darülfünunda Türk-Monqol tarixindən və rus dilindən dərs deyir. Bu dövrdə Əhməd bəyin türkçülük ideyaları onun fəaliyyətinin əsas istiqamətinə çevrilir. O, 1912-ci ildə istefa verərək, “İttihad və Tərəqqi” Firqəsinə daxil olur. Həmin il keçirilən seçkilərdə Afyon-Qarahisardan Osmanlı parlamentinə deputat seçilir. 1912-ci ildə Ə.Ağaoğlu iki dəfə yazdığı məqalələrə görə tutulur və tezliklə də azad edilir.

1915-ci ildə Osmanlı Məclisi Məbusanına (Millət Məclisi) Afyon nümayəndəsi olaraq daxil olan Əhməd bəy, eyni zamanda, İttihad və Tərəqqi təşkilatının “Mərkəzi Ümumisinin” üzvü olmuşdur.

Azərbaycanda Şura hökuməti qurulduqdan sonra Əhməd bəy yenidən Türkiyəyə, bu dəfə Ankaraya köçməli olur. Türkiyədə jurnalist və siyasi fəaliyyətini davam etdirən Əhməd bəy mətbuat bürosunun direktoru, Türkiyənin “Hakimiyyəti-Milliyə” qəzetinin baş redaktoru olmuşdur.

Türkiyədə yaşayan Ə.Ağaoğlu Azərbaycanla əlaqəni kəsməmişdi. 1915-ci ildə, o, Rusiyada yaşayan milli azlıqların Lozannada keçirilən konfransında Azərbaycanın təmsilçisi kimi çıxış etmişdir. Birinci Dünya müharibəsi dövründə ABŞ prezidenti V.Vilsona ünvanlanmış Rusiya müsəlmanlarının haqlarının qorunması müraciətinə imza atanlardan biri də Əhməd bəy idi.

Belə bir ictimai-siyasi fəaliyyəti, ədəbi-bədii düşüncələri ilə maarifpərvər ziyalı kimi xatırlanan Əhməd bəyin 150 illik yubileyi qeyd olunacaq və onun keçdiyi yola nəzər salınarkən böyük ziyalının fəaliyyəti işıqlandırılacaq.

***Zümrüd BAYRAMOVA***

## Azərbaycan Burundi qaçqınlarına yardım edib



BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMTQAK) üzv dövlətlərə etdiyi müraciətinə cavab olaraq, Azərbaycan Prezidentinin tapşırığına əsasən, Azərbaycan Respublikası Burundi qaçqınlarına humanitar yardımın göstərilməsi məqsədilə 30 min ABŞ dolları məbləğində maliyyə vəsaiti ayırıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Qeyd edilib ki, sözügedən vəsait Tanzaniya, Konqo Demokratik Respublikası, Ruanda və Uqandada məskunlaşmış Burundi qaçqınlarının təcili humanitar tələbatının qarşılanması, onların öz ölkələrinə qayıdışının təşviq edilməsi və cəmiyyətə reinteqrasiya olunması kimi fəaliyyətlərin dəstəklənməsinə yönəldiləcək.

Məlumat üçün bildirmək istərdik ki, BMT QAK “2019-2020-cu illər üzrə Burundi Qaçqınlarına Regional Yardım Planı”nı təqdim edərək nəzərdə tutulmuş fəaliyyətlərin həyata keçirilməsi üçün 296,4 milyon ABŞ dolları məbləğində maliyyə vəsaitinin tələb olunduğunu açıqlayıb, Burundi qaçqınlarının qida, tibbi yardım, uşaqların təhsil və sair kimi təcili humanitar tələbatının qarşılanması məqsədilə üzv dövlətlərə müraciət edib.

## Qazaxın Məzəm kəndində düşmən atəşindən qorunmaq üçün istinad divarı çəkilir

Ermənistanla 168 kilometrlik sərhəddə yerləşən Qazax rayonunun həmsərhəd beş yaşayış məntəqəsindən biri olan Məzəm kəndində istinad divarları çəkilir. Qazax Rayon İcra Hakimiyyətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, Məzəm kəndi daim erməni silahlı birləşmələrinin atəşi altındadır. Münaqişə başlayan vaxtdan bəri 65 evdən ibarət olan bu kənd 8 şəhid verib. Onlardan 4 hərbçi öz torpaqlarının müdafiəsi yolunda canından keçib. Dörd nəfər kənd sakini isə düşmən gülləsinin qurbanı olub. Kənd sakini Mərfət Nəsibov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.



Qeyd edilib ki, sərhəddə yaşayan həmin sakinlərin istər yaşayış şəraitlərinin yaxşılaşdırılması, istərsə də təhlükəsizliklərinin təmin olunması məqsədilə atəş nöqtələrinə ən yaxın məsafədə yerləşən 57 evin qarşısına 2530 paqonmetr uzunluğunda və 3 metr hündürlüyü olan istinad divarları çəkilib. Bundan əlavə, vətəndaşların xahişi nəzərə alınaraq, daha 5 evin qarşısına 88 paqonmetr uzunluğunda istinad divarının çəkilməsi nəzərdə tutulub.

## Zelenski Azərbaycanda “Vandamın” kəndini ziyarət edib?




Məlum olub ki, Ukraynada keçirilən prezident seçkilərinin ikinci turunda qalib olmuş Vladimir Zelenski dəfələrlə Azərbaycanda olub. SİA-nın əldə etdiyi məlumata görə, 2017-ci ilin yayında o məzuniyyətini ölkəmizdə keçirib və Qəbələ rayonunu da ziyarət edib. Həmin vaxt Zelenski İnstaqram səhifəsində zarafat şəklində yazıb ki, Azərbaycanda “Vandamın kəndini tapıb”. Belə ki, o həmin vaxt Qəbələnin məşhur Vəndam kəndinin girişindəki yazılı lövhənin altında zarafatına uyğun olaraq, Jan Klod Vandamın döyüş duruşunu poz verərək, fotoşəkil çəkdirib. “Mən, dostlarımla Vandamın kəndində oldum, düşünürəm ki, o bundan məlumatsızdır, bax bu əsl danışıqlardır!!!”, deyə aktyor Zelenski fotoşəklinin altında rəy yazıb. O cümlədən, ötən ay Zelenski “Gülüş Liqası” verlişi zamanı Azərbaycan dilində tanınmış milli istehsalımız olan çay çeşidinin (reklam məqsədli olduğu üçün şirkətin adını yazmırıq-R.) reklamını edib. Qeyd edək ki, Ukraynanın yeni seçilmiş prezidenti paytaxt Bakıda və digər bölgələrimizdə də olub və fotolarını paylaşıb.

***Rövşən***

# 23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür

*Erməni işğalı nəticəsində Azərbaycanın 700-dən artıq tarixi və mədəniyyət abidəsi, 11 dünya əhəmiyyətli abidə dağıdılıb, qarət edilib və yandırılıb*



***23 Aprel Dünya Kitab və Müəlliflik Hüququ Günüdür. Bu barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilmişdir. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti olaraq, bu gün bütün dünyada qeyd olunur. Azərbaycanda isə həmin gün 1997-ci ildən etibarən ənənəvi şəkildə qeyd edilir və müxtəlif tədbirlərlə müşayiət olunur.***

Belə tədbirlərin keçirilməsində məqsəd kitabların insan həyatındakı böyük əhəmiyyətini vurğulamaq, müəlliflik hüququnun mədəni irsin yaranmasında, qorunub-saxlanmasındakı rolunu göstərmək, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı əhəmiyyətini diqqətə çatdırmaqdır. Eyni zamanda, əqli mülkiyyətin yaradıcılarına olan hörmət və ehtiramı nümayiş etdirmək, diqqəti mədəni irsin və adət-ənənələrimizin qorunub-saxlanmasına yönəltməkdir.

Azərbaycanın müəllif-hüquq sisteminin yaradıcısı Ümummilli Lider Heydər Əliyevdir. Məhz Onun uzaqgörənliyi sayəsində 1993-cü ildə mərkəzi icra hakimiyyəti statusunda Müəllif Hüquqları Agentliyi yaradıldı və 1996-cı ildə müstəqil Azərbaycanın ilk əqli mülkiyyət üzrə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun qəbul olundu. "Azərbaycanın əqli mülkiyyət sisteminin beynəlxalq səviyyəyə yüksəlməsinə yol açıldı. Ulu Öndər Heydər Əliyevin tövsiyələri əsasında Avropa məkanında, ilk dəfə olaraq, MHA tərəfindən "Azərbaycan folklor nümunələrinin qorunması haqqında" qanun layihəsi hazırlandı. 2002-ci ildə isə "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun qüvvəyə mindi.

Müasir dövrdə 5 qanundan, o cümlədən, "ƏMH təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" unikal qanunlardan, 100-ə qədər normativ-hüquqi sənədlərdən ibarət olan Azərbaycanın müəllif-hüquq bazası mövcuddur. Piratçılığa qarşı görülən tədbirlər nəticəsində, 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi müxtəlif sahələrdə 20-30 % aşağı düşüb.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, adıçəkilən qanunlarda müasir dəyişikliklər edilib və onlara əlavələr olunub. Bununla yanaşı, müəllif-hüquq qanunvericiliyi zənginləşib, 2004-cü ildə "Məlumat toplularının hüquqi qorunması haqqında" Qanun, 2012-ci ildə isə "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul olunub. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsi olaraq, Azərbaycanın müəllif-hüquq sistemi beynəlxalq ekspertlərin rəyinə əsasən, MDB məkanında ən inkişaf etmiş sıralara daxil edilib və nümunəvi sistem kimi qəbul olunub. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bu sistemin özünəməxsus yeri vardır.

Azərbaycan xalqının mədəni irsinin yüz illər boyu ermənilər tərəfindən "Gəldim, gördüm,... mənimsədim" sxemi üzrə oğurlanması siyasəti ölkəmizə qarşı ərazi iddiaları ilə sıx bağlıdır. Ermənilər öz ərazi iddialarını əsaslandırmaq üçün Azərbaycan torpaqlarının həqiqi sakinlərinə məxsus olan maddi və qeyri-maddi mədəni irsin mənimsənilməsi və erməniləşdirilməsi ilə bağlı yollardan istifadə etməyə çalışırlar. Əqli və maddi-mədəni oğurluqlarla, tarixi-coğrafi uydurmalarla, özlərinə yalançı tarix formalaşdırırlar. Dağlıq Qarabağı və ətraf torpaqlarımızı bu günə qədər boşaltmayan, beynəlxalq hüquq normalarına riayət etməyən və beynəlxalq strukturların qərarlarına məhəl qoymayan, azğınlaşmış ermənilər öz siyasətlərini davam etdirirlər. Erməni vandalizmi nəticəsində, Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarixi və mədəniyyət abidəsi, o cümlədən, 11 dünya əhəmiyyətli abidə dağıdılıb, qarət edilib və yandırılıb. Ermənilər tərəfindən Azərbaycanın mədəni irsinin mənimsənilməsinə yol verilməməsi üçün bütün imkanlardan istifadə edilir.

Ermənilər Azərbaycanın adət-ənənələrini, tarixi abidələrini, musiqini, musiqi alətlərini, mətbəxini və digər nümunələrini öz adlarına çıxmağa çalışırlar. Bu məqsədlə, ermənilər hər bir yola, hətta cinayətə də əl atırlar. Azərbaycan xalqının mədəni irsinin qorunması, ermənilər tərəfindən özününküləşdirilməsinə yol verilməməsi üçün ciddi addımlar atılır. Belə ki, ölkəmiz Haaqa Konvensiyasının müvafiq komitəsinə üzv seçilib və işğal olunan ərazilərdə mədəni irsin vəziyyətini iclasın gündəliyinə daxil edərək, bu istiqamətdə müvafiq sənədin qəbul edilməsinə nail olub.

Son illər xalqımıza məxsus maddi-mədəni irs nümunələrinin qorunması və dünyada təbliği istiqamətində görülən işlər təqdirəlayiqdir.

***Zümrüd BAYRAMOVA***

# Hanoyda AZƏRTAC və Yonhap informasiya agentlikləri rəhbərlərinin görüşü olub



Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin Hanoyda keçirilmiş 44-cü iclası çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanov və Koreyanın Yonhap Agentliyinin rəhbəri Ço Sunq-bo arasında görüş olub. Qeyd edək ki, bu il noyabr ayında Seulda OANA-nın Baş Assambleyası keçiriləcək. Həmin tədbirdə bu təşkilata sədrlik AZƏRTAC-dan Yonhap Agentliyinə keçəcək.

AZƏRTAC-ın müxbiri Vüqar Seyidov Hanoydan xəbər verir ki, görüşdə tərəflər çoxillik əməkdaşlığın nəticələrinə nəzər salıb, qarşılıqlı münasibətlərin müsbət dinamikasını vurğulayıblar. Həmçinin münasibətlərin indiki vəziyyətindən məmnunluq ifadə olunub, mövcud əlaqələrin həm ikitərəfli çərçivədə, həm də OANA formatında genişləndirilməsinin zəruriliyi qeyd edilib. Cənubi Koreya və Azərbaycan, AZƏRTAC və Yonhap arasında münasibətlərin dostluq xarakteri daşıdığını vurğulayan Aslan Aslanov Seula səfərini, koreyalı həmkarlarının işi ilə tanışlığını, qarşılıqlı xəbər mübadiləsinə yol açan əməkdaşlıq sazişinin imzalanmasını xatırladıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri daha sonra bildirib ki, Azərbaycanda onlarca Koreya şirkəti işləyir. Həmsöhbətini Bakıya dəvət edən A.Aslanov vurğulayıb ki, Yonhapın rəhbəri ölkəmizə səfəri zamanı Koreya məhsullarını Azərbaycanın hər yerində görə biləcək: Bakının yollarındakı avtomobillər, müəssisələrin ofislərindəki məişət texnikası, sakinlərin istifadə etdikləri kommunikasiya vasitələri və sair.

Yonhapın rəhbəri Ço Sunq-bo dəvətə görə OANA prezidentinə təşəkkür edib və iki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu bildirib. O, iki dost agentliyin əməkdaşlığı daha da inkişaf etdirmək istiqamətində səyləri artırmasının zəruriliyini vurğulayıb. Qeyd edib ki, bu məqsədlə hər iki ölkənin nümayəndələrindən ibarət qrupların həm təcrübə mübadiləsi aparmaq, həm də öz həmkarlarının nailiyyətləri ilə tanışlığı üçün qarşılıqlı səfərlərinin təşkil edilməsi faydalı olardı.

# "Azərbaycanla yüksək əlaqələr qurmaq Ukrayna üçün faydalıdır"



"Əslində Ukraynada keçirilən seçkilərlə bağlı gözləntilər fərqli idi. Poroşenkonun seçkilərdə qalib gələcəyini düşünsək də bu baş vermədi. Səsvermədə seçki təcrübəsinə malik olmayan, cavan, millət etibarı ilə qeyri-slavyan biri olan Zelinski üstünlük qazandı". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. O bildirib ki, Zelinski ruspərəst biri kimi xarakterizə edilir: "Onun işğal şəraitində yaşayan Ukraynanın idarəetməsi ilə bağlı müxtəlif fikirlər irəli sürülür. Hazırda bu suallara cavab vermək kifayət qədər çətindir. Çünki televiziyada aparıcı olaraq çalışan birinin uğurlu dövləti idarəetməsi ilə bağlı fikir söyləmək asan deyil. Hər halda dövləti idarə etmək televiziyada çalışmaq deyil".

Politoloqun fikrincə, Ukraynada seçkilərin nəticəsi gələcəkdə bu ölkəyə həm təhlükələr, həm də uğur gətirə bilər. Azərbaycan-Ukrayna münasibətlərinə gəlincə Q. Hüseynli söyləyib ki, seçkilərdən sonra iki ölkə arasında əlaqələrin yenidən qurulmasına ehtiyac yarana bilər. Onun sözlərinə görə, Azərbaycanla yüksək əlaqələr qurmaq Ukrayna üçün faydalı ola bilər: " Bildiyiniz kimi Rusiya onlara verilən nefti kəsib. Azərbaycanla münasibətlərin yüksək səviyyədə qurulması onların neftlə təminatına da müsbət təsir göstərə bilər. Hesab edirəm ki, iki ölkə arasında əlaqələr bundan sonra da yüksələn xətlə inkişaf edəcək. Seçkilərin nəticələri Ukrayna xalqının istəyini xarakterizə edir. Azərbaycan da buna hörmətlə yanaşır".

"Ukraynanın yeni seçilən prezident Zelinskinin nə Donbas, nə də Krım məsələsində tezliklə ölkənin ərazi bütövlüyünü təmin edə biləcək qədər uğurlu siyasət həyata keçirmək qüdrətinə malik olduğunu görmürəm. Bunun gələcək göstərəcək. Ukrayna bu seçkilərdən sonra köhnə ərazilərinə yiyələnə və ya əksinə yeni ərazilər itirə də bilər", - deyə Q. Hüseynli əlavə edib. Qeyd edək ki, ötən gün Ukraynada prezident seçkilərinin ikinci turu keçirilib. Son nəticələrə görə, MSK səslərin 90,25 faizini hesablayıb. Nəticələrə əsasən, Vladimir Zelenski 73,18 faiz səs, P. Poroşenko isə 24,49 faiz səs toplayıb.

# Poroşenko məğlub oldu: "Gələn ay prezidentlik postunu tərk edəcəyəm"



Ukraynada prezident seçkilərinin ikinci turu keçirilib. Mübarizə məşhur şoumen Vladimir Zelenski və hazırki Prezident Pyotr Poroşenko arasında gedib. Hər iki namizəd Ukraynanın yeni prezidenti olmaq uğrunda mübarizə aparıblar. Ukraynada prezident seçkilərinin ikinci turu ilə bağlı keçirilən səsvermə yerli vaxtla saat 20:00-da başa çatıb. Milli "ekzit-poll"un nəticələrinə görə, V.Zelenski 72,3 faiz səslə ikinci turun qalibidir. Hazırki prezident Poroşenko isə 25,3 faiz səs toplayıb. Hazırki prezident Pyotr Poroşenko seçkilərdə məğlubiyyətini etiraf edib: "Artıq növbəti ayda prezidentlik postunu tərk edəcəyəm. Ukraynalılar belə qərar verdilər. Mən bu qərarı qəbul edirəm. Lakin onu da vurğulamaq istəyirəm ki, mən siyasəti tərk etmirəm". Zelenski "ekzit-poll" nəticələrini şərh edib. O, dəstəyə görə tərəfdarlarına təşəkkür edib: "Biz bunu birlikdə etdik. İndi pafos olmayacaq, mən sadəcə təşəkkür etmək istəyirəm. Dəstək üçün öz valideynlərimə, həyat yoldaşıma təşəkkür edirəm. Komandamıza, bütün qərargaha, hər kəsə, ekspertlərə, hüquqşünaslara, könüllülərə, müşahidəçilərə, bir sözlə hamıya təşəkkür edirəm".

# Bakıda qadına qarşı quldurluq edən şəxs tutulub



Daxili İşlər Nazirliyinin "102 - Zəng Mərkəzi"nə müraciət edən Bakı şəhər sakini S.Əliyeva aprelin 20-də Pirşağı qəsəbəsi ərazisində naməlum şəxsin ona qarşı zor tətbiq edərək qulağındakı qızıl sırğaları çıxardığını və içərisində şəxsiyyət vəsiqəsi, diplom, maaş kartı və 2 ədəd mobil telefon olan çantanı aldığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müraciətlə əlaqədar dərhal Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsinin əməkdaşları tərəfindən müvafiq araşdırmalar aparılıb. Keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini E.Məmmədov qısa müddətdə saxlanılıb. Araşdırma aparılır.

# Antimilli qüvvələr cəzasız qala bilməz

***Bu, bir faktdır ki, müxalifət formalaşa və inkişaf edə bilmir. Yaratdıqları blok və qurumlar partiya sədrlərinin iddiaları səbəbindən dağılır. "DUH", "SİDSUH", "Azadlıq" siyasi bloku və nəhayət, 2013-cü il prezident seçkiləri ərəfəsi yaradılan "Milli Şura" dağılan qurumlardandır. Artıq fəlakət böyük fəallıqla yaradılan "Azərbaycan Xalq Hərakatı"nın qapısını da döyməkdədir. Daha doğrusu, "AXH" iki yerə parçalanıb. Bütün bunlar bir daha təsdiq edir ki, müxalifət liderləri bir araya gəlmək gücünə malik deyillər. Söhbət etdiyimiz müsahiblərimiz də bildirdilər ki, xarici maraqlı dairələrin sifarişlərinə baxmayaraq müxalifət birlik modeli ortaya qoya bilmir, çünki birinci olmaq iddiaları onların bir araya gəlmələrinə imkan vermir.***

### AMİP funksioneri Əli Orucov: "Müxalifətin qüsuru, çatışmayan cəhəti çoxdur "



- Azərbaycan müxalifəti çox spesifik və rəngarəngdir. Bunlar normaldır. Normal olmayan odur ki, bu düşərgədə hələ də köhnə simalar, köhnə yanaşmalar və köhnədən qalma düşmənçilik münasibətləri var. Uzun illər siyasətdə olmalarına baxmayaraq müxaliflər arasında mövcud narazılıq aradan qaldırılmayıb. Yəni bu illər ərzində yeniləşməyə, yeni texnologiyalara yiyələnməyə can atmayıblar. Aradabir birləşmələr, yaxınlaşmalar olubsa, bu da liderlərin şəxsi istəklərinə bağlı olub. Təəssüf ki, bu cür birləşmələr qısamüddətli olur. Az sonra maraqlar toqquşduğundan, yenidən bir-birinə düşmən kəsilirlər. Bu baxımdan, müxalifətin qüsuru, çatışmayan cəhəti çoxdur. Bununla belə düşünürəm ki, nə zamansa, müxalifət daxilində də təmizlənmə olacaq və siyasi arenaya yeni sağlam qüvvələr çıxacaq.

### TOHGMİB-nın sədri Emin Həsənli: "Müxalifət düşərgəsi işsiz-gücsüz avaralardan ibarətdir"



- Birmənalı şəkildə demək olar ki, artıq müxalifət düşərgəsini təmsil edən şəxslər tükəniblər. Onların yeni ideyaları, təklifləri və fikirləri yoxdur. Ən yaxşı halda mitinq keçirməklə məqsədə uyğun olmayan, reallıqla uyğunlaşmayan fikirlərlə çıxış edirlər. Onlar bir araya da gələ bilmirlər. Çünki bir-birlərinə nifrət edirlər. Deməк olar ki, müxalifət liderlərinin hər biri özünü digərindən üstün tutur və istəyir ki, lider ancaq özü olsun. Ona görə də, müxalifət təmsilçiləri tərəfindən yaradılan hər hansı bir birliyin uzun ömürlü olmasından söhbət gedə bilməz. Ümumiyyətlə, bu gün müxalifət partiyalarında 3-5 nəfər təmsil olunur, bəziləri isə bir sədri, bir də papkalarıdır. Onlar bir yerə ziyarətə getsələr, plakatlarını tutmağa belə adamları yoxdur. Bu adamların bir yerə yığışmaları görüntü xarakteri daşıyır, konkret işləri, ideyaları yoxdur. Çay içib, dağılışırlar. Müxalifət düşərgəsi işsiz-gücsüz avaralardan ibarətdir. Bu adamların dözümlü, qarşılıqlı hörmət müstəvisində müzakirələr aparmaq qabiliyyətləri yoxdur. Ona görə də, çayxanalarda keçirdikləri qeybət xarakterli toplantılarında bir-birlərini təhqir edirlər. Zaman-zaman yaratdıqları bütün birliklərin iki-üç ay ömrü olmayıb və bəziləri bir neçə ic-lasdan sonra parçalanıb. Ona görə ki, bunların fikir fəlsəfəsində dövlətçilik, millətçilik, vətənpərvərlik, azərbaycançılıq prinsipi mövcud deyil. Bunlar şəxsi mənafelərini güddüklərindən rəhbərlik etdikləri partiyalar parçalanmaya məruz qalır.

***GÜLYANƏ***

# Sərdar Cəlaloğlu "müxalifətdə mənəm" deyənlərə mesaj ünvanladı

***Son günlər müxalifət düşərgəsində təmsil olunan partiyaların mitinq iddiasına daha çox maraq göstərənlərinin məqsədi bəlli olub. ADP sədri Sərdar Cəlaloğlu AXCP-"Milli Şura" və Müsavatın "birlik"də mitinqi olub.***

Planlaşdırmalarına münasibət bildirərkən vurğulayıb ki, müxalifət bir şeydə həmrəydir ki, heç bir məsələdə həmrəy olmasın: "Əvvələ onu deyim ki, Azərbaycanda təkcə mitinq xatirinə mitinq keçirmək tendensiyası çox zərərlidir, demokratik prosedurun havaya sovrulmasıdır. Mitinqlər onu zəruri edən həqiqi şərtlər olduğu zaman keçirilməlidir. Ehtiyatsız bir söz, ehtiyatsız bir addım xaotik vəziyyət yarada bilər. Mitinqlərə icazə verilməməsi, Azərbaycanda ictimai-siyasi vəziyyətlə bağlıdır. Bir də o zaman nəyəsə nail ola bilərsən ki, mitinqlər çox-minli və sürətli olsun. S.Cəlaloğlu onu da bildirib ki, mitinqdə o halda nəticə ola bilər ki, meydana milyonlarla adam çıxsın, adam azdırsa, bu sürətli olmalıdır. Azərbaycan müxalifəti bunun heç birini eləmir. Meydana 2-3 min nəfər çıxarır, sonra gedib oturur evdə.



### "Əli Kərimli özündən müştəbeh xarici qüvvələrin idarəolunanıdır"

S.Cəlaloğlu Əli Kərimlinin özündən başqa və bir kimsəni müxalifət hesab etmədiyini bildirib: "Axı sən kimsən ki, Azərbaycanda heç kəslə dialoqa getmirsən. Yaxud, Müsavatdan soruşuram, sən öz partiyandan başqa hansı partiyanı müxalifət hesab edirsən? Bunlar heç kəsi müxalifət hesab etmirlər. Deməli, Ə.Kərimli hesab edir ki, Müsavat hakimiyyətə satılıb, Müsavat deyir ki, Ə.Kərimli də daxil olmaqla bütün partiyalar satılıb, "REAL" sədri İlqar Məmmədov isə belə hesab edir ki, özü istisna olmaqla hamı satılıb, ta nooldu?! Sən başqasına satqın deyirsən, o da Ə.Kərimlinin zombi qrupunun üzvləridir. Onlar Ə.Kərimlinin təsiri altında olan adamlardır. Əgər bir qüvvə xarici qüvvələrin nəzarəti altındadırsa, başqa qüvvələrlə təmasa getməməlidir".

***R.HÜSEYNOVA***



## Sirkə nə qədər tünd olsa...

**RƏFİQƏ**

***Bəlkə yalandır, ay özlərini "müxalifətçi" adlandıran mənəviyyatsızlar. Belə yazırıq, deyirlər ki, "Səs" qəzeti təhqir edir. Düz söz deyirik, deyirlər ki, bunu qəbul etmirik, bizim öz "yolumuz" var. Soruşmaq istərdik, o yol hansı yoldur? Bu torpağın çörəyini yeyə-yeyə, suyunu içə-içə, həyasızcasına Azərbaycanın güclənməsini istəməyən, onun uğurlarını həzm edə bilməyən və ölkəmizə qarşı "qara piar" kampaniyası aparmaqla yanaşı, yeni məkrli planlar hazırlayıb, onları reallaşdırmaq üçün min bir oyundan çıxmaq? Onlar bu məqsədlə özünü "demokratik qüvvələr" adlandıran bir qrup marginal dəstədən-AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli kimi adını azərbaycanlı qoyan məxluqlardan və onların tör-töküntülərindən məharətlə istifadə edirlər.***

Dəfələrlə sübut olunub ki, anti-Azərbaycan dairələr və erməniрərəst qüvvələrlə əlbir olan həmin xəyanətkar antimilli şəbəkənin üzvləri ya bəzi xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edir, ya da məkrli fondlar vasitəsilə öz ağalarından aldıqları tapşırıqlar əsasında ölkəmizin beynəlxalq imicinə zərbə vurmaq üçün dəridən-qabıqdan çıxırlar. Bu dəstənin baş koordinatoru AXCP sədri Əli Kərimlidir. O, Ə.Kərimlidir ki, "siyasi məhbus" alveri ilə məşğul olmaqla cəbhədaşlarını ayının min oyunu bir armuda görə olduğu kimi, bu satqın da bütün mənəviyyatını xarici qrantlara satmağa adət etmiş zəhərli ilandır. Bu o Ə.Kərimlidir ki, heç bir sosial bazası olmayan səbatsız "liderdir".

Əslində, heç kimə sirr deyil ki, Ə.Kərimli, C.Həsənli kimi lakeylər erməni lobbisinin təsiri altında olan bəzi təşkilatların çirkli pulları ilə qidalanaraq Azərbaycanın beynəlxalq aləmdəki nüfuzuna kölgə salmağı, qara yaxmağı öz fəaliyyətlərinin əsas prinsipinə çeviriblər. Cəmiyyətimiz antimilli ünsürlərin məkrli niyyətini çox yaxşı bilir. Onların xaricdəki ağalarının beş-üç qəpik tulapayına şirniklənərək hansı çirkin oyunlardan çıxdıqlarına da yaxşı bələddir. Öz çirkin fəaliyyətlərini davam etdirən bu antimilli mikroblar ölkəmizin əleyhinə təbliğat aparmaqla xaricdəki ermənipərəst "ağalarının" sifarişlərini yerinə yetirmək üçün yeni metodlardan istifadə etməyə başlayıblar. Bu xəyanətkarlar öz çirkin əməlləri, məkrli planları ilə bir daha göstərdilər ki, onların əsas məqsədləri ermənipərəst dairələrin və anti-Azərbaycan qüvvələrin sifarişlərini yerinə yetirərək qrant qazanmaqdır. Ancaq hansı oyundan çıxırsınızsa- çıxın, sonu yoxdur. Necə deyərlər, sirkə nə qədər tünd olsa, öz qabını çatladır.

# "Nar" Azərbaycan Qran Prisi üçün texniki hazırlıqları başa çatdırıb

***Ölkənin ən gənc mobil operatoru "Nar" 26-28 aprel tarixlərində paytaxtımızda baş tutacaq "Formula-1 Azərbaycan Qran-Prisi" yarışları zamanı həm yerli, həm də əcnəbi abunəçilərin telekommunikasiya tələblərinə tam şəkildə cavab vermək üçün hazırlıq işlərini başa çatdırıb.***

Belə ki, mobil operator sürət həvəskarlarına ən yüksək səviyyədə mobil rabitə xidmətləri göstərmək üçün ərazinin şəbəkə testlərini tamamlayıb və şəbəkənin keyfiyyət ölçülərini müəyyənləşdirib. Yarış ərazisi və tədbir məkanlarında şəbəkə tutumu maksimum optimallaşdırılıb, yüksəkkeyfiyyətli internetdən kəsintisiz istifadə imkanını təmin etmək üçün 225Mbps-dək sürət təqdim edən 4G (LTE-A) şəbəkə tutumu quraşdırılıb. Dənizkənarı bulvar ərazisində yeddi mobil stansiya yaradılıb ki, bu stansiyaların yeri şəbəkə analizləri və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin sorğularına əsasən təyin edilib.

Yarışların keçiriləcəyi ərazilərdə 24/7 rejimində çalışacaq "Nar" əməkdaşları şəbəkəyə nəzarət edəcək, şəbəkə istifadəçilərinə dəstək olacaqlar. "Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

Qeyd edək ki, yaranan hər hansı bir sualla bağlı "Nar" abunəçiləri yüksəkkeyfiyyətli müştəri xidmətlərindən özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinet, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla yararlana bilərlər. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

TƏRS BAXIŞ

## Çayxor və “razborşik” müxalifəti

*Yaxud iki “qoçun” başı bir “AXH”-də qaynamaz*





***“Azərbaycan Xalq Hərəkatı” daxilində cərəyan edən ziddiyyətlərin nəticəsi olaraq, bu qurumun ikiyə parçalanması faktı tərəflər arasında hələ də çözülməmiş qalır. Bir tərəfdə dönəm sədri olan “Ağ” partiyanın sədri Tural Abbaslı, digər tərəfdə isə AMDP sədri İsgəndər Həmidovun, eləcə də tərəfdarlarının kəskin qarşıdurmaları hətta bir neçə dəfə görüşlər keçirilsə belə səngiməyib.***

Bu arada, T.Abbaslı ilə İ.Həmidovun növbəti görüşündə də “AXH”də baş verən qarmaqarışıq situasiya öz həllini tapa bilməyib. Bəri başdan deyə bilərik ki, bütün bunların kökündə bilavasitə şəxsi ambisiya faktı dayanır. İdarə heyətindən çıxarılanlardan tutmuş, tərəflərin adamları arasında baş verən davalara qədər bütün günahlar qarşılıqlı olaraq irəli sürülür. Həm T.Abbaslı, həm də İ.Həmidov əsas suçu qarşı tərəfdə, yəni bir-birlərində gördüklərini deyirlər.

Maraqlısı da budur ki, “Ağ” partiya ilə AMDP sədrləri guya ümumi razılığın, konsensusun əldə edilməsində maraqlı olduqlarını deyirlər, hətta etiraf edirlər ki, çay içə-içə problemlərini həll etməyə çalışırlar. Amma fakt ortadadır - nə çayxorluq, nə də digər sözdə barışıqlıq istəyi mövcud “razborka”nı aradan qaldırmır. Hətta daha da qızışdırır. Yəni tərəflər siyasəti bir kənara qoyub, açıq-aydın “razborşiklik” edirlər.

### “Ağ” partiya sədri Tural Abbaslı: “Daxildəki problemlər davam edəcək”

“İstərdim ki, ümumi bir razılıq əldə olunsun. Amma təəssüf ki, buna hələ nail olmamışıq”. Bu fikirləri T.Abbaslı deyib. Düzdür, o növbəti iclasa qədər guya hər hansı razılıq əldə ediləcəyini desə də, qarşı tərəfin ayrıca iclas etdiyi amilinə də toxunub. “Ayrı-ayrı iclasların olması ümumi prosesə ziyandır, fəaliyyəti də zəiflədir”, etirafını edən “Ağ” partiyanın sədri vəziyyətin qəliz olduğunu bildirib. Əbəs deyil ki, T.Abbaslı belə davam edəcəyi halda, növbəti qarşıdurmaların baş verəcəyini istisna etməyib: “Biz tərəf artıq qərarların verildiyini və qərarlara hörmətlə yanaşılmasını qeyd edirik. Düşünürük ki, bizim aldığımız qərarlar həyata keçməsə, fəaliyyət yenə də mümkünsüz olacaq, daxildəki problemlər davam edəcək. Əsas fikir ayrılığı bu məsələdədir”.

### AMDP sədri İsgəndər Həmidov: “21 gündür razborka ilə məşğuluq”

İ.Həmidov da qarşı tərəf məzmununda cavab verib. “Məni ağrıdan odur ki, işlərimiz, təşkilatlanma kənarda qalıb, 21 gündür “razborka” ilə məşğuluq”, deyən AMDP sədri dolayısı ilə qarşı tərəfdən kiminsə onların arasına nifaq saldıqlarını da bildirib, hətta bundan sonrakı hadisələrin necə cərəyan edəcəyini bilmədiyini qeyd edib: “Bir rejissorun göstərişi ilə aramıza elə bir nifaq salıblar ki, bilmirəm necə olacaq”.

Yəni fakt budur ki, ortada heç bir qarşılıqlı addım yoxdur. Uzun illərdir ki, çayxor və “razborşik” müxalifəti kimi tanınan düşərgə təmsilçilərinin bənzər davranışları vəziyyətlərinin daha da qəlizləşməsinə səbəb olmaqdadır. Necə deyərlər, iki “qoçun” başı bir “AXH”də qaynamaz. Ümumiyyətlə, “AXH”dəki qarşıdurmaların baş verməsi bütövlükdə ümumdüşərgə reallığının bariz, danılmaz sübutudur.

**Rövşən NURƏDDİNOĞLU**

## Müxalif yaramazların “liderlik” davası qızışır

*Rəsul Quliyev: “Satqınlıq şinelindən çıxan Əli Kərimli, nəinki “lider”, heç baş çoban da ola bilməz”*

***ABŞ-da mühacir həyatı yaşayan AXCP-nin keçmiş lideri Rəsul Quliyev son günlər müxalifət düşərgəsində təmsil olunan bəzi partiya sədrlərinin “liderlik” iddiasında olmalarından əsəbləşərək, onları səviyyəsiz adlandırıb: “Səviyyəsiz düşüncəyə malik olan kəslərdən bundan savayı nə eşitmək olar? Bu, o müxalifətdir ki, siyasi istəklərini həyata keçirmək və məqsədlərinə çatmaq üçün hər cür alçala bilirlər. Hələ də Azərbaycan xalqının nifrətini anlamırlarsa, hansı üzlə “liderlik” davası döyürlər?”***



R.Quliyev bildirib ki, dağıdıcı düşərgədə müxalifətin çirkin üzü olan AXCP sədri Əli Kərimli kimi satqın hansı əməllərinə görə “lider” olmaq istəyir: “Əli Kərimli qədər alçaq, səviyyəsiz, mənəviyyatsız görməmişəm. Satqınlıq şinelindən çıxan Ə.Kərimlinin həyasızcasına “lider” olmaq iddiası, bir daha boğulanın saman çöpündən yapışmasına bənzəyir. Siyasi meydanda, oxluğunu ört-basdır etmək üçün indi də “liderlik” məsələsini ortaya atmaqla, “varlığını” nümayiş etdirmək istəyir. Ancaq ölü dirilməz, Ə.Kərimli, sən çoxdan ölmüsən”.

R.Quliyev daha sonra bildirib ki, Müsavatın keçmiş başqanı İsa Qəmbər və Ə.Kərimlinin hansı məqsədə qulluq elədiklərini özlərindən başqa heç kim bilməz: “Belə nəticə çıxarmaq lazımdır ki, müxalifət hesab edilmək üçün gərək heç bir işlə məşğul olmayasan, hərdənbir “azadlıq” qışqırıb, tüfeyli həyat sürəsən. Əgər müxalifətçiliyi özünə peşə seçmisənsə, istənilən bir qurumda ömrünün axırına qədər oturacaqsan. Əgər məqsədin ölkədə demokratiyaya nail olmaqdırsa, bu, artıq peşə deyildir. Çox təəssüf edirəm ki, Azərbaycanda belə elementar anlayışları başa düşən müxalifət yoxdur. Onlar bu kimi vasitələrlə, onsuz da, xalqdan təcrid olunublar. Nə yaxşı ki, onlarla deyiləm”.

Eks-spiker, həmçinin, bəzi müxalifət nümayəndələrinin Azərbaycanda dəbdə olan “Rəsul Quliyev artıq siyasi meyitdir” frazalarından istifadə etmələrinə də münasibətini bildirib: “Görünür, onlar bundan xoşallanıb, “növbəti düşmənimizi məhv etdik” deyə düşünürlər. Ancaq anlamırlar ki, müxalifət düşərgəsində olanlar çoxdan meyit olaraq arxivə atılıblar”.

Bax, burada bir atalar sözünün də deyilməsi yerinə düşər: “Kor-kora kor deməsə, bağrı çatlar”. İndi zaman göstərəcək, görəsən, kim-kimdən “ağıllıdır”.

**R.HÜSEYNOVA**

## Antimilli qüvvələri “xortlamağa” vadar edən nədir?

*Sıravi cəbhəçilər Əli Kərimli kimilər barəsində hüquqi addımlar atılmağı tələb edir*

***Müxalifətin 25 illik fəaliyyətinə nəzər saldıqda, aydın şəkildə görünür ki, onların fəaliyyətləri antidövlətçilik və anti-millətçilik fəaliyyətləri üzərində qurulub və ermənipərəst qüvvələrin dəstək və sifarişləri ilə səfərbər olaraq xalqımızın bütün ali dəyərlərini zədələməyə və baltalamağa çalışırlar. Son mitinqləri zamanı da bir daha buna şahid olduq. Belə ki, “Milli Şura”, AXCP və Musavatın birgə keçirmək istədikləri mitinq “arzuları” elə arzu olaraq qaldı.***

Çünki keçirmək istədikləri mitinq vasitəsilə bir çox ermənipərəst dairələrin erməni lobbisinin ölkəmizə qarşı siyasi təxribatlarını həyata keçirməyə çalışdılar. Eyni zamanda, Azərbaycana qarşı şantaj və qarayaxma, nüfuzdansalma kampaniyalarına start veriblər və bu məkrli planların, ölkəmizə qarşı olan kirli oyunların baş rolunu yenə də AXCP-"Milli Şura” və Müsavat “liderləri”dir.

Söz yox ki, Əli Kərimli və onun kimilər milli xəyanət yolu tutan əxlaqsız mənəviyyatsızlardır. Buna görə də, onlar tamamilə siyasətə yox deməlidir. Ancaq bu reallığı hələ də anlamayan əxlaqsız Ə.Kərimli anti-Azərbaycan mərkəzlərlə, Azərbaycanın düşmənləri tərəfindən idarə olunan, qul psixologiyası ilə yaşayan mənəviyyatsızdır.

### Aydın Əliyev: “Əli Kərimlinin satqınlıq xronologiyası onun nə qədər da iblis xislətli olduğunu sübut edir”

AXCP-nin MNTK-nın keçmiş sədri Aydın Əliyev AXCP-dən istefa verməsinin səbəbini açıqlayarkən bildirib ki, Ə.Kərimli doğrudan da, iblis xislətlidir: “Dünyada elə şəxsiyyətlər mövcud olub ki, illər, qərinələr, hətta əsrlər keçsə belə, onların insanlar üçün gördükləri işlər bu gün də öz səmərəsini verir. Ancaq elə kəslər də olur ki, onların adları çəkiləndə, lənət və nifrinlərdən başqa heç nə eşitmək olmur. Beləlri insanlıqdan uzaq olan iblislərdir. Bu gün düşərgənin xəyanət simvolu olan AXCP sədri Ə.Kərimlinin satqınlıq xronologiyasına nəzər salmaq kifayətdir”.



A.Əliyev onu da bildirib ki, Ə.Kərimli bu günədək şərəfsiz çıxışlar edir, əslində isə o, xarici pulverənlərə kompromat ötürmək uğrunda mübarizə aparır: “Onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar. Bunu uzun müddət Ə.Kərimli ilə bir cəbhədə təmsil olunan şəxs kimi bəyan edirəm. AXCP sədri tək öz xalqına, vətəninə deyil, amalına, məsləkinə, dostluğuna, yoldaşlığına qarşı da xəyanət yolu tutub”.

### Əli Kərimli erasına son qoyulmalıdır!

A.Əliyev onu da qeyd edib ki, partiyada bu günədək Ə.Kərimlinin uğursuz siyasətini görüb, tənqidə başladıqda, o, partiyadaxili işlərdən uzaqlaşdırılıb: “Artıq Ə.Kərimli erasına birlikdə son qoymalıyıq. Bizə 25 ildir öz şəxsi mənafeyinə qulluq edən müxalifət yox, yeni fikirli, intellektual gənclər lazımdır. Ə.Kərimli illərdir gənclərdən qul kimi istifadə edib. Bu, yolverilməzdir. Bu insan onlarla gənci partiyadan bezdirib istefa etmələrinə zəmin yaradıb. AXCP-ni öz şəxsi biznesi kimi idarə edən Ə.Kərimlidən alıb xalqa qaytarmaq lazımdır”.

A.Əliyev onu da söyləyib ki, Ə.i Kərimli ölkədə demokratiya axtarır, amma partiyasından xəbəri yoxdur: “Öncə bir get partiyadaxili proseslərə bax, sonra bu cür bəyanatlar səsləndir. Özü bilə-bilə bizi güclə meydanlara göndərib sonra da tutdururdu. Zorla “Azadlıq” qəzetinə abunə edirdi, ayda 10 manatımızı alırdılar. Amma bizə konkret demirdilər ki, qəzetə yığırıq. Deyirdilər ki, qəzetimizi dövlət cərimələyib, ona görə də kömək etmək lazımdır. Digər bir tərəfdən də indi Ə.Kərimlinin ətrafında özü kimi bir neçəsi var ki, bizə satqın deyir. Biz satqın deyilik, biz satqınlara qarşı çıxanlarıq. Özlərini sığortalamaqdan ötəri min bir yalana əl atanların, ümumiyyətlə siyasət adına, partiya adına danışmağa haqları yoxdur. Ə.Kərimli dağıdıcılıq, ziyankarlıq, xəyanət missiyasını daim tətbiq edərək düşərgədə qarışıqlıq yaratsa da, silahdaşları onu heç vaxt qəbul etməyib. Zorən “lider” olmaq əxlaqsızlıqdır”.

Azərbaycan dövlətinin və millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimlinin xəmiri belə yoğrulub. Ona və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli, cəmiyyətdən təcrid etməlidir.

**Rəfiqə HÜSEYNOVA**

# Genderin mədəniyyət sistemində yeri və rolu

***Genderin nəzəri anlamında mərkəzi, əsas yer onun sosial-mədəni kateqoriya kimi şərhinə məxsusdur. Genderə belə yanaşma qanunauyğun olaraq onun sosial təşkilli və mədəni təşkilli fenomen kimi tərifindəki dəqiqləşdirilməsinə ehtiyac ilə şərtləndirilir. “Mədəniyyət nəzəriyyəsi və tarixi” əsərində yazılır:” Həmin səviyyədə genderin iki qarşılıqlı əlaqəli mahiyyəttərəfi - sosial və mədəni tərkib hissələri, maddi-praktiki, sosial-konkret və mədəni-mənəvi, rəmzi büruzəsi arasındakı fərq aşkar olunur.***

Genderin sosial təşkil baxımından dərk olunması sosial varlığın əmək alətləri və istehsal vasitələrinin inkişaf səviyyəsi, tarixi inkişafın müvafiq mərhələsində yaranmış əməyin ictimai bölümü, sosial həyatın müxtəlif tərəflərinin artıq formalaşmış və təsdiqini tapmış xarakterinin həmin prosesə təsirinin nəzərə alınmasını tələb edir. Bu zaman genderin formalaşma, inkişaf və yenidən istehsal proseslərinə, gender fərqləri və bütövlükdə gender sisteminin fundamental əsası olaraq onların funksional və maddi məqsədlərdən, sosiumun vəzifələrindən asılılığı nəzərdən keçirilir. Bununla da genderin müxtəlif sosial əlaqələr, qarşılıqlı təsir və qarşılıqlı münasibətlərdə aşkarlığının rəngarəngliyi onun sosiomədəni tədqiq orbitinə düşür. Tətbiqinin əsas nöqtəsi olaraq gender araşdırmasının bu konteksti gender sosial sisteminin gender stereotiplərinə, rollarına, təfəkkürünə və sairəyə təsirini nəzərdə tutur. Başqa sözlə desək, diqqət mədəni qatın sosial formasiyanın maddi xüsusiyyətlərindən asılılığına yönəlir. Öz növbəsində genderin mədəni təşkili onun təhlili gedişində gender içtimailəşməsinin, gender stereotipləri, rolları, gender eyniləşməsinin, təfəkkür proseslərinin formalaşması kimi amillərin və rəngarəng mədəni kontekst axınında yerləşənlərin genderin təşəkkül və inkişafına, gender bərabərsizliyi və gender sistemlərinə təsirinin nəzərə alınmasını tələb edir. Qeyd etmək lazımdır ki, genderin sosial-mədəni fenomen kimi ikili təbiəti onun sosial və mədəni təşkil proseslərinin birvaxtlı, birgə, qarşılıqlı əlaqəli gedişini nəzərdə tutur. Genderin bu xüsusiyyəti onun inkişaf prosesinin dinamikası və istiqamətlərinin cəmiyyətdə baş verən müxtəlif sosial dəyişikliklər: iqtisadi, sosial stratifikasiya, siyasi-hüquqi, mədəni, ideoloji və mənəvi islahatların hərtərəfli praktikasından asılılığı ilə əlaqədardır. Yuxarıda deyilənləri nəzərə alaraq, bu mövzu çərçivəsində ilk növbədə genderin sosial təşkili prosesini nəzərdən keçirək. Bəşər tarixində gender stratifikasiyası və gender bərabərsizliyinin yaranması sosial stratifikasiyanın ümumi təşəkkül meyli və sonrakı sosial bərabərsizliyin formalaşması ilə sıx şəkildə bağlıdır.” Əsərdə qeyd edilir ki, gender bərabərsizliyi də sosial bərabərsizlik kimi, hər şeydən əvvəl kişi və qadın arasında əsas, praktiki olaraq insanların sosiomədəni məkanda cəmlənmiş maddi və mənəvi nailiyyətlər və firavanlıq imkanlarını müəyyən edən sosial əhəmiyyətli ehtiyatların; maddi dəyərin (mülkiyyət və ya gəlir şəklində), hakimiyyətin (sosial təsirin bütün səviyyələrində onun ayrı-ayrı aşkarlıq formalarında), təhsil və nüfuzun qeyri-bərabər bölünməsindən ibarətdir. Cəmiyyət inkişaf etdikcə sosial stratifikasiyanın cəmiyyətdəki peşə-vəzifə strukturunda rolu və yeri, əmək və məişət şəraiti, siyasi həyatda iştirak dərəcəsi, ailə sahəsində iştirakı, asudə vaxtının xüsusiyyətləri, ixtisas və mənəvi təkmilləşmə imkanları, bütövlükdə həyat tərzi kimi göstəriciləri və ölçüləri gender stratifikasiyaları və bərabərsizliyi üçün də səciyyəvi göstəriciyə çevrilir. Gender bərabərsizliyi sosiomədəni konstrukt kimi kişi və qadın arasındakı təbii, bioloji fərqlər əsasında yaranmışdır. Əmək alətləri inkişaf etdikcə və texnologiya təkmilləşdikcə, əməyin ictimai bölümü dərinləşdikcə, maddi və mənəvi istehsal nəticələrinin müvafiq bölüm sistemi yarandıqca, cəmiyyətin iqtisadi, siyasi və mənəvi fəaliyyət sahələrində patriarxat mədəniyyətin hakim vəziyyəti özünü təsdiq etdikcə, kişilərlə qadınlar arasındakı təbii fərq sosial bərabərsizlik qandalı ilə buxovlanır. Sadaladığımız prosesləri daha geniş araşdıraq: Gender stratifikasiyası sosial stratifikasiyanın struktur bölməsi, xüsusi bir sosiomədəni kəsimi olduğundan və onun əksər göstəricilərinə və xarakteristikalarına malik olduğundan onu təfsilatı ilə tədqiq etməkdən ötrü hər şeydən əvvəl kişi və qadının özünü qida, geyim və sığınacaqla təmin etmək üçün hansı əmək alətlərinin lazım olduğu və müvafiq olaraq bunu necə təşkil ediləcəyi araşdırılır. Bundan başqa, iqlim şəraiti, torpağın vəziyyəti və insanların həyatına təsir göstərən digər ekoloji göstəricilər də nəzərə alınmalıdır. Həmçinin belə yanaşmanın əmək fəaliyyəti çərçivəsində baş verən proseslərin sosial dəyişikliklərlə, sərt determinasiya ilə bağlı olmadığını unutmaq olmaz. Əmək alətləri və texnologiyalar müəyyən hadisələr üçün yalnız müəyyən şərait yaradır, lakin onları heç də mütləq etmir. Eyni zamanda antropoloji ədəbiyyatda həmin yanaşma təkamül adlandırılır, çünki əmək alətlərinin inkişafı və təkmilləşməsi istehsalın və istehlakın inkişafına səbəb olur. Amerika sosioloqu və antropoloqu Coan Huber özünün “Gender stratifikasiyası nəzəriyyəsi” (1993) adlı məqaləsində ekologiya, ərzaq istehsalı texnologiyası və uşaq doğumundakı dəyişikliklər kimi bir neçə amilin qarşılıqlı təsirini araşdıraraq üç prinsip əsasında gender stratifikasiyası modelini işlədir. Birinci prinsip ailə səviyyəsinə aiddir: mal istehsal edən insanlar onu istehlak edənlərdən daha çox hakimiyyətə və nüfuza malikdirlər - almaqdansa vermək bacarığına malik olmaq daha yaxşıdır. Bu zaman qanuni bir sual ortaya çıxır: məhsuldar əmək nədən asılıdır və bu cəmiyyətdə onunla kim məşğul olur? Axı kişi və qadın praktiki olaraq əmək sahəsi daxilində olduqca geniş sosial əhəmiyyətli funksiyalar yerinə yetirmək üçün bərabər imkana malikdirlər. Buna baxmayaraq bütün cəmiyyətlərdə əməyin bölümü zamanı cins amili həlledici rol oynayır. Bu sualın cavabı ondan ibarətdir ki, kişi ilə qadın arasındakı bioloji fərq nəticəsində kişilər cəmiyyətin yaşaması və insan populyasiyası üçün iki mühüm funksiyanı - uşaq dünyaya gətirmək və onu yedirmək funksiyalarını yerinə yetirə bilmir. “Mədəniyyət nəzəriyyəsi və tarixi” əsərində yazılır:” Əgər cəmiyyət sağ qalmaq istəyirsə, həmin iki reproduktiv funksiya əksərən qadınlar tərəfindən yerinə yetirilməlidir. Bu aşkar faktdan gender stratifikasiyasının ikinci prinsipi doğur: bəşəriyyət özünün yaşaması və inkişafı üçün əməyin kişi və qadın arasında bölünməsi gedişində qadının yerinə yetirdiyi əmək fəaliyyəti növlərini hamiləlik və sonra isə südəmər uşaqları yedizdirmək imkanı ilə birləşdirməsi üçün şərait yaratmalıdır. Cəmiyyətin yaxud ailənin həyat səviyyəsi, bunun nəticəsi olaraq qadının çiyninə qoyulmuş işin həcmi ilə əhalinin bioloji istehsal prosesinin səmərəlilik səviyyəsi arasındakı sıx əlaqə tarixin bütün gedişi boyu izlənmişdir. Məsələn, XIX əsrin əvvəlində Lionun və Parisin fəhlə ailələrində uşaq ölümünün səviyyəsi çox yüksək idi. Bu onunla əlaqədar idi ki, həmin ailələrdəki qadınlar ailənin gəlirini artırmaq üçün çox işləməli olur və onların südəmər övladları isə dayənin ümidinə qalırdı. Və nəhayət, Coan Huberə görə, gender stratifikasiyasının üçüncü prinsipi ümumsosioloji stratifikasiya nəzəriyyəsi ilə bağlıdır: hər hansı cəmiyyətdə daha böyük hakimiyyətə və nüfuza malik olan insanlar maddi rifah və dəyərlərin ailədən kənarda bölünməsinə nəzarət edənlərdir. İbtidai cəmiyyətdə bunlar ovçular, kənd təsərrüfatında - hərbi aristokratiya, sənayedə isə - siyasi, iqtisadi və hərbi bürokratiya idi. Ekoloji şəraitin və əmək alətlərinin uşaq doğumu və tərbiyəsi ilə alaqədə ovçuluq və meyvə yığımı, toxa ilə əkin, heyvandarlıq, əkinçilik və sənaye inkişafına əsaslanmış beş növ cəmiyyətdə gender stratifikasiyasının formalaşmasına təsirini izah edən nəzəriyyə həmin adları çəkilən üç prinsipə əsaslanır. Ovçuluq və meyvə yığımına əsaslanan ibtidai cəmiyyətdə başlıca əmək aləti taxta nizə və daş idi. Həmin alətlərin köməkliyi ilə əldə edilən qida insanların kiçik qruplarla, əsasən 50-yə yaxın adamın birlikdə yaşaması ilə şərtlənirdi. İri heyvanları ovlamaqla məşğul olan kişilərin əti bütöv qrup daxilində bölüşdürə bildiyi, lakin uşaqlarla birgə giləmeyvə və qoz-fındıq yığan qadınların isə bununla yalnız öz ailəsini təmin edə bildiyi üçün kişilər daha böyük hakimiyyətə və nüfuza sahib idi. Ovun yeganə qida mənbəyinə çevrildiyi sosiumlarda isə kişilərin üstünlüyü güclənirdi. Kişinin bir neçə ailə saxlamasına imkan verməyən ərzaq çatışmazlığı belə cəmiyyətlərdə poliqamiyanı nadir hadisəyə çevirirdi. Ovun kobud fiziki qüvvədən daha çox səbir, çeviklik, birgə hərəkət tələb etməsinə baxmayaraq, qadınlar ov ustalığına yiyələnə bilərdi. Lakin onlar ibtidai cəmiyyətdə bu nüfuzlu fəaliyyət növü ilə məşğul olmurdu. Məsələ onda idi ki, yüksək ölüm səviyyəsi ilə bağlı olaraq qadınlar öz həyatının əksər hissəsini uşaq doğmağa və övladını yaşatmaq üçün bəzən 4 yaşa qədər onu döşü ilə yedizdirməyə sərf edirdi. Bütün bunlar qadının evdən kənarda qeyri-müəyyən vaxt keçirməsini tələb edən ovçuluqla məşğul olmasını mümkünsüz edirdi. Beləliklə, əhali hasilatına olan ehtiyac qadını ona hakimiyyət və nüfuz gətirən fəaliyyət növləri ilə məşğul olmağa imkan vermirdi. Həyatı təmin edən prinsipcə yeni əsasa - əkinçiliyə keçid əhalinin artımı, iqlim dəyişiklikləri və ovçuluğun insanları ərzaqla təmin etmək nöqteyi-nəzərindən səmərəliliyinin tədricən azalması ilə bağlı idi. Başlıca ov obyekti olan iri məməlilərin populyasiyasının istehsal səviyyəsi insanların onları ovlamaq tələbatından geri qalmağa başladı. Torpağın vəziyyəti və iqlim baxımından əkinçilik üçün əlverişli şəraitin yarandığı bölgələrdə yemin azlığı ucbatından insanlar daha oturaq həyat tərzinə keçməli və torpağın şərti vahidindən əldə olunan yemin böyük miqdarı ilə bağlı həmin fəaliyyət növü ilə məşğul olmağa başladılar. Taxta əkin vasitələrinə əsaslanan primitiv toxalar 9000 il əvvəl Avrasiyanın Afrika ilə kəsişdiyi yerdə meydana gəldi. Taxta toxanın primitivliyinə və torpağı yaxşı belləməyə imkan verməməsinə və buna görə də insanları hər neçə ildən bir yaşadığı yerlərdən köçüb getməyə və yeni, məhsuldar torpaq axtararaq ovçuluqla, meyvə yığımı ilə də məşğul olmağa məcbur etməsinə baxmayaraq əkinçilik daha bol yem əldə etmək və bununla əlagədar birlikdə sabit sayda yaşayan insanların miqdarını 95-ə çatdırmaq imkanı yaratdı.” Əsərdə qeyd edilir ki, daha yaxşı inkişaf etmiş toxa ilə becərmə üsulu 6000 il əvvəl metal alətlərin yaranması ilə meydana çıxdı. Belə cəmiyyətlər Amerikada, Asiya və Avropada yarandı. Yemin miqdarının artması birliklərin sayının 60 dəfə çoxalmasına səbəb oldu. Metal alətlərin icad edilməsi tədricən ehtiyatların artmasına, sabit iqtisadi əlavənin yaranmasına, əmək bölümünün dərinləşməsinə və bununla da sosial bərabərsizliyin yaranmasına gətirib çıxardı. Bununla da müasir sosial stratifikasiyanın əsası qoyuldu. Bundan başqa, metaldan olan silah müharibəni daha səmərəli və əlavə məhsulun artması baxımından daha sərfəli etdi. Fəaliyyət növlərində prioritetlərin dəyişməsi gender stratifikasiyasında prinsipal dəyişikliklərə səbəb olmadı. Əgər primitiv toxa ilə becərmədə kişilər torpağı biçin üçün inhisarlaşdırmışdısa, daha inkişaf etmiş və irəli gedən cəmiyyətlərdə onlar müharibə aparılmasını inhisarlaşdırdı. Və yenidən maddi nemətlərin bölüşdürülməsi ilə bağlı qadınlar üzərində üstün hüquq əldə etdi. Gender stratifikasiyası ilə bağlı eyni mənzərə dağlıq landşaft, müntəzəm quraqlıq yaxud qısamüddətli isti mövsüm ucbatından əkinçiliyin səmərəsiz olduğu üçün əsas yaşayış mənbəyini heyvandarlıqda görən cəmiyyətlərdə də müşahidə olunurdu. İnsanı evdən uzun zaman ayrı salan həm heyvandarlıq, həm də müharibə hamiləliklə və südəmər uşaqlara qayğı ilə bir yerə sığmırdı və buna görə də kişilər yenə də maddi nemətlərin istehsalında və bölüşdürülməsində üstünlüyə malik olurdular. Metal xışdan istifadəyə əsaslanan əkinçilik mövcud gender stratifikasiyanı möhkəmlətdi. Bundan savayı, bütün sənaye cəmiyyətlərində kişi və qadın davranışını təyin edən qanun, ənənə, stereotip və normalar şumlu əkinçilik dövrlərindəki çarlıq və imperiyalardan miras qalmışdı. Şumlu əkinçiliyin qadın statusuna təsiri özünü təkcə onun istehsalatda iştirak payının evdən çox aralı çöllərdə işlədiyi üçün azalmasında göstərmirdi. Yüksək məhsuldarlığa malik olduğu üçün şumlu əkinçilik torpağı əsas miras və vardövlət növünə, monoqamiyanı isə varislərin sayı üzərində ciddi nəzarətin vacibliyi üzündən kəbinin əsas növünə çevirdi. Buna görə də kəbindənqabaqkı və evli insanın davranışı cəmiyyətin nəzarətinə alındı. Həmin nəzarət alətləri isə qanunlar, ənənələr və ictimai rəy oldu.

**Vahid Ömərov**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 23 aprel


## Çiy su orqanizm üçün faydalıdır

İnsanların əksəriyyəti qaynanılmış suyun orqanizmə ziyanlı olduğunu düşünərək onu çiy halda içir. Su qaynadıqda tərkibindəki kalsium, maqnezium, karbonat və digər minerallar buxarlanır. Həkim-fitoterapevt Esmira Zeynalova bu barədə deyib: "Su nə qədər çox qaynayırsa, bir o qədər ağırlaşır və nəticədə çətin mənimsənilir. Daim qaynadılmış su içənlərin dəri rəngi solğun, saçları cansız olur. Mütəxəssislərin fikrincə, çiy su içənlərin fiziki aktivliyi daha yüksəkdir. Görünür, bir dəfədən artıq qaynayan suyun "ölü su" adlandırılması heç də təsadüfi deyil. Su 60 dərəcə qaynayandan sonra onun tərkibində olan minerallar parçalanır və orqanizmdə fəsad yaradır. Gün ərzində hər kiloqram bədən çəkisi üçün 30 milliqram çiy su qəbul edilməlidir".

Onun dediyinə görə, suyu qaynatmadan içmək orqanizm üçün daha faydalıdır. Qaynanmış su içməkdən çəkinənlər unutmamalıdırlar ki, təmizləmə prosesindən keçmiş suyun qəbulu orqanizmə müsbət təsir göstərir və müxtəlif filtrlər vasitəsilə həmin problemi aradan qaldırmaq olar. Sağlam və yetkin kişilərdə bədən ağırlığının 60, qadınlarda isə 50 faizinin sudan ibarət olduğunu nəzərə alsaq, maye qəbulunun əhəmiyyətini daha aydın dərk etmək olar.

## Qara çayın tərkibində mərkəzi sinir sistemi üçün vacib olan kofein var

Çayın yaşıl, qara və ağ növləri var. Çayı düzgün qəbul etmədikdə onun faydasından çox zərəri olur. Mütəxəssislərin rəyinə görə, bir çox xəstəliklərin qarşısının alınmasında çay faydalı vasitədir. Ancaq çaydan düzgün istifadə edilməndə onun xeyrini görmək olar. Belə ki, qida təhlükəsizliyi mütəxəssisləri hər gün insanın 400-600 milliqram, yaxud 4 stəkan yaşıl çay içməsinin vacibliyini bildirirlər. Hər gün içilən 1 stəkan qara çay isə zehni qüvvətləndirir. Çay içərkən onun miqdarına və şəkərsiz içilməsinə diqqət yetirilməlidir.

Keyfiyyətli və yaxşı dəmlənilmiş çay baş ağrılarını, fiziki və zehni yorğunluğu aradan qaldırır. Qara çayın tərkibində mərkəzi sinir sistemi üçün çox vacib olan kofein var. Həmin maddə yorğunluğu aradan qaldırır, ürək döyüntülərinin sayını artırır, beyinin işini yaxşılaşdırır, yaddaşı möhkəmləndirir, əhvali-ruhiyyəni yaxşılaşdırır. Bununla yanaşı qara çayın tərkibindəki saponinlər iltihab əleyhinə təsir göstərir.

Çayın düzgün hazırlanması çox vacib məsələdir. Bunun üçün şüşə, saxsı və çini dəm çayniklərindən istifadə etmək lazımdır. Çayı dəmlədikdən sonra bir saat ərzində içmək məsləhət görülür.

## Bakıda ilk dəfə aerobika gimnastikası üzrə Avropa çempionatı təşkil olunacaq

Mayın 24-26-da Bakıda ilk dəfə aerobika gimnastikası üzrə Avropa çempionatı keçiriləcək. Azərbaycan Gimnastika Federasiyasının məlumatında deyilir ki, gimnastikanın müxtəlif növləri üzrə bir çox irimiqyaslı yarışlara ev sahibliyi edən Milli Gimnastika Arenası bu dəfə öz qapılarını Avropanın dinamik və enerjili gimnastika növünün təmsilçilərinə açacaq. Üç gün davam edəcək çempionatda aerobika gimnastları medallar uğrunda mübarizə apararaq, öz aralarında ən güclüləri müəyyənləşdirəcəklər.

Böyük və gənc gimnastlar fərdi qadın və kişi, qarışıq cütlük, üçlük, qrup, həmçinin aero dans, aero step (yalnız böyüklər) proqramında yarışacaqlar. Qaydalara əsasən, bir iştirakçı bu kateqoriyaların maksimum 3-də çıxış edə biləcək. Komanda hesabında qaliblər isə 5 ən yaxşı çıxışa görə müəyyən ediləcək. On birinci Avropa çempionatda hər bir kateqoriya üzrə təsnifat və final mərhələləri baş tutacaq.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsinin 311V qrup tələbəsi İbişov İmran Hikmət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər tərbiyə ixtisası üzrə II kurs tələbəsi Aslanbəyli Gültəkin Niyaz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Quliyev Azər Rasim oğluna məxsus Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi, Azərbaycan Kooperasiya Universitetinin tələbə bileti, 10-SH-377 nömrə nişanlı Toyota Prado markalı avtomobilə məxsus texniki pasportu və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Lyuis Hemilton: Bakıda Bottasın və "Ferrari" pilotlarının rəqabətini gözləyirəm



"Mercedes"in pilotu Lyuis Hemilton Formula 1 çempionatının Azərbaycan Qran-Prisindən gözləntiləri barədə təəssüratlarını bölüşüb. AZƏRTAC xəbər verir ki, britaniyalı Bakı trasının onun xoşuna gəldiyini etiraf edib. "Bu, yaxşı trasdır, lakin onun üzərində inadla işləmək lazımdır. Mənim məqsədim daha yaxşı olmaq və irəli getmək, daha yüksək nəticələrə nail olmaqdır. Ötən il Bakıda yarışı qazanmaqda mənim bəxtim gətirdi. Mən uik-end ərzində ən sürətli deyildim.

Mən Bottasın, həmçinin "Ferrari" pilotlarının mənimlə rəqabət aparacaqlarını gözləyirəm. Onlar düz yolda udur, lakin döngələrdə geri qalırlar", - deyə "Marca" Hemiltondan sitat gətirir. Xatırladaq ki, Hemilton 68 xalla pilotlar cədvəlinə başçılıq edir. "Mercedes"in digər təmsilçisi Valtteri Bottas 62 xalla ikinci yerdə, "Red Bull"un pilotu Maks Ferstappen isə 39 xalla üçüncü yerdədir.

## Formula 1 Azərbaycan Qran-Prisinin bolidləri Bakıya gətirilib



Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakı Heydər Əliyev Beynəlxalq Aeroportuna yüklərin gətirilməsinə başlanılıb. Aeroportun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yarış bolidləri, onlara xidmət və yarışların təşkili üçün lazım olan avadanlıq reyslərlə Şanxay və Bəhreyndən gətirilib. Yüklərin böyük hissəsi Azərbaycanın "Silk Way West Airlines" aviaşirkəti tərəfindən daşınıb. Milli yük aviadaşıyıcısı təkcə Formula 1-in Azərbaycan mərhələsi üçün deyil, həm də müxtəlif qitələrdə digər yarışlar üçün avadanlıqların daşınmasını həyata keçirir.

Qeyd edək ki, bolidlərin təkərləri daimi +20 dərəcə temperaturun saxlanıldığı xüsusi konteynerlərdə daşınır. Azərbaycan Qran-Prisi 2019-cu il aprelin 26-dan 28-dək keçiriləcək. Yarışlar qədim İçərişəhər, şəhərin müasir hissəsinin siluetləri və Xəzər dənizinin sahili mənzərəsi fonunda keçiriləcək.

## PSJ vaxtından əvvəl çempion olub



PSJ futbol klubu vaxtından əvvəl Fransa çempionu olub. Paris təmsilçisi yarışın sonuna 5 tur qalmış çempionluğunu rəsmiləşdirib. Paris klubu buna 33-cü turda meydana çıxmadan nail olub. İkinci pillədəki "Lill" klubunun "Tuluza" ilə səfər oyununda xal itirməsi paytaxt təmsilçisini vaxtından əvvəl çempion edib. Hazırda hesabında 65 xal olan "Lill" PSJ-dən 19 xal geri qalır. Belə ki, son 5 turda bu fərqin aradan qalxması mümkün deyil.

"Paris Sen-Jermen" son 7 ildə 6-cı, ümumilikdə isə 8-ci çempionluğunu qeyd edib. Parislilər bu göstəricidə yalnız "Marsel" (9) və "Sent-Etyen"dən (10) geri qalır. Paris təmsilçisinin 33-cü turda "Monako" (3:1) ilə qarşılaşması Kilian Mbappe üçün əlamətdar olub. Fransalı hücumçu qarşılaşmada het-trik edərək çempionatdakı qollarını 30-a çatdırıb. O, bu nəticə ilə Fransa çempionatında 30 qol vuran ən gənc futbolçu olub. Mbappe keçmiş hücumçu Erve Revellinin rekordunu yeniləyib. Qeyd edək ki, 20 yaşlı fransalı futbolçu Paris klubunun heyətində cari mövsümdə keçirdiyi 40 oyunda 36 qol vurub və 6 məhsuldar ötürmə edib.

## "Real" Beyli icarəyə göndərəcək?




"Real" futbolçusu Qaret Beyli icarəyə göndərə bilər."Marca" nəşrinin yazdığına görə, Madrid təmsilçisi bu mövsüm azarkeşlərin tənqidlərinə məruz qalan 29 yaşlı hücumçunu yayda icarəyə verməyə hazırlaşır. 2017-ci ildə Xames Rodriqesi "Bavariya"ya icarəyə göndərdikdən sonra satan "Kral klubu" uelsli oyunçu üçün buna bənzər plan hazırlayır. Qeyd edək ki, Beyllə "Mançester Yunayted" və "Tottenhem"in maraqlandığı iddia olunur. Xatırladaq ki, bundan əvvəl "Real"ın Beyli satacağı yazılırdı.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**